www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 oktyabr 2015-ci il Çərşənbə axşamı № 226 (6254) Qiymətı 40 qəpik

**Xəbər**

## Prezident "büdcə vəsaitlərini qənaətlə işlədin" tapşırığını verdi

yazısı səh.3-də

**Gündəm**

### "''Şapka Mamed" borclarını almaq üçün qoçu dəstəsi saxlayır" - qalmaqal



"Turanbank"ın sahibinin müştərilərdən kreditlərini hədə-qorxu yolu ilə aldığı iddia olunur; girov təminatlı istehlak kreditləri müştərilərdən məhkəmə yolu ilə deyil, reket üsulu ilə geri alınır

yazısı səh.10-da

### Partiyaların seçki şüarları - cəmiyyətə kim hansı mesajı verir...

yazısı səh.6-da

### ABŞ-dan hakimiyyətə sanksiya xəbərdarlığına müxalifətdən fərqli münasibət

yazısı səh.9-da

### İqbal Ağazadə Araz Əlizadəyə sərt cavab verdi

yazısı səh.6-da

### "Meydan TV" və AzadlıqRadiosu qanundan kənar elan olundu

yazısı səh.11-də

### Ermənilər Qarabağda yeni qəsəbə salır, ATƏT isə danışıqlara çağırır

yazısı səh.13-də

### Gürcüstan bizi Rusiyaya "satsa"... Bakının "B" planı varmı?

yazısı səh.11-də

### Banklara borcu olan vətəndaş ölkədən qaçmaq istəyərkən saxlanıldı

yazısı səh.14-də

### BVF yeni böhranın anonsunu verdi

yazısı səh.15-də

### Xalq artisti zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirildi

yazısı səh.14-də

### Havalar soyudu, "dəm qazı terroru" başladı...

yazısı səh.15-də

### Asif Hüseynov Siyəzənə icra başçısı təyin edildi

yazısı səh.2-də

## Məmmədovlar klanını qara günə Ağ Ev iddiası qoyub

# ZİYA MƏMMƏDOVU BİTİRƏN ŞOK SƏBƏB - "SİYASİ XƏYANƏT"

ABŞ-da prezident seçkilərinin ilkin mərhələsi başladıqdan sonra nazir və oğlu Azərbaycan iqtidarını şərikləri olan Donald Trampa həm maddi, həm də siyasi dəstək verməyə razı salmaq istəyib; Məmmədovların niyə uzaq Amerikada olan seçkilərlə bu qədər ciddi maraqlanmasının səbəbi üzə çıxdıqda isə...




yazısı səh.5-də

## Vaşinqtonla Bakı arasında yeni gərginlik - Kreml pusquda...

ABŞ-ın qadın senatorları Senata Azərbaycana dair sərt qətnamə layihəsi təqdim etdilər; eyni gündə Konqresin maliyyələşdirdiyi AzadlıqRadiosu ölkəmizdə qanunsuz elan olundu; bölgənin taleyi Azərbaycanda həll olunarkən münasibətlər kritik nöqtəyə doğru gedir...

yazısı səh.8-də



### Elton Məmmədovun oğlu kafesində qumarxana açıbmış

yazısı səh.3-də



### "Virtual səsvermədə" Pənah Hüseynə qarşı saxtakarlıq...

yazısı səh.6-da



*Rauf Arifoğlu:*

### "ANS-in söz və mətbuat azadlığı anlayışına heç bir aidiyyəti yoxdur"

yazısı səh.4-də



**Arif Hacılı Müsavat Partiyası başqanının müavini, vicdan məhbusu Fərəc Kərimlini doğum günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Fərəc bəy, əziz dostum!**

**Sizi doğum günü münasibəti ilə ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, fədakar mübarizənizdə uğurlar arzulayıram.**

**Siz çox gənc yaşlarınızdan Müsavat Partiyasının sıralarına qoşularaq, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal iştirakçılarından biri olmusunuz. Müsavat Partiyasının fəal üzvü kimi partiyanın qərarlarının icrasında, Müsavat ideologiyasının təbliğində fəallıq göstərirsiniz. Siz gənclərin Müsavat Partiyasının sıralarına qoşulması, Gənclər Təşkilatının güclənməsi üçün üzərinizə düşən vəzifələrinizi həmişə məsuliyyətlə yerinə yetirmiş, bu təşkilatın idarə olunmasında bütün bacarıq və gücünüzü sərf etmisiniz. 2000-ci illərin əvvəllərindən başlayaraq keçirilən kütləvi aksiyalarda, seçki kampaniyalarında xüsusi fəallıq göstərmiş, üzləşdiyiniz təzyiqlərə baxmayaraq, əqidənizə sədaqətiniz və fədakarlığınızla başqalarına nümunə olmusunuz. Bu fədakar fəaliyyətinizə görə hakimiyyət tərəfindən şərlənərək həbs olunmuş, beynəlxalq birlik tərəfindən vicdan məhbusu kimi tanınmısınız. Həbs olunduqdan sonrakı dövrdə də Sizin qürurlu davranışınız, səmimiyyətiniz və iradəniz hər kəsə bir örnəkdir. Bütün bu xidmətlərinizə görə Müsavat Partiyasının Məclis üzvü seçilmiş, Müsavat başqanının müavini təyin olunmusunuz. Siz bu ağır şəraitdə də partiyadaşlarınızla azad, ədalətli və demokratik cəmiyyət quruculuğu, eləcə də işğal altında olan torpaqlarımızın azad olunması uğrunda mübarizəyə misilsiz dəstək verirsiniz. Fədakar mübarizəniz, işgüzarlığınız, prinsipiallığınız, səmimiyyətiniz və təvazökarlığınız partiyadaşlarımız və ictimaiyyət arasında Sizə böyük nüfuz qazandırıb. Şübhəsiz ki, Sizin bu xidmətləriniz zamanında xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndiriləcək.**

**Hörmətli Fərəc bəy!**

**Sizi bir daha 30 yaşınızın tamam olması münasibətilə təbrik edir, apardığımız bu müqəddəs, şərəfli mübarizədə uğurlar arzulayıram".**

# Leyla və Arif Yunusların apelyasiya şikayəti üzrə məhkəmə prosesi başladı

**Bakı Apelyasiya Məhkəməsində hakim Vüqar Məmmədovun sədrliyi ilə Leyla və Arif Yunusların apelyasiya şikayəti üzrə ilkin baxış iclası başlayıb. Məhkəməni çoxsaylı xarici diplomatik missiyaların nümayəndələri izləyib.**



Bakı Ağır Cinayətlər Məhkəməsi avqustun 13-də Leyla Yunusa 8,5 il, Arif Yunusa 7 il həbs kəsib. Leyla və Arif Yunus 2014-cü ilin iyulunda həbs olunub. Onlar dələduzluq, qanunsuz sahibkarlıq, vergidən yayınma və sənədlərin saxtalaşdırılmasında ittiham olunurlar. Onlara qarşı dövlətə xəyanət ittihamı isə ayrıca icraata götürülüb.

Yunuslar ittihamları qəbul etmir və siyasi sifariş adlandırır. Leyla və Arif Yunus «Amnesty İnternational tərəfindən "vicdan məhbusu" elan edilib.

Iclasda Leyla və Arif Yunus məhkəmə zalında şüşə kabinədə (akvarium) oturdulub. Zalda 15-dən 20-dək məhkəmə nəzarətçisi var.

Yunusların hər ikisinin sifətlərində ağrılardan əziyyət çəkdikləri açıq hiss edilir. Arif Yunus əllərini başının arxa hissəsinə sıxaraq ağrıdan gözlərini yumur. Hakimin "məhkəmə heyətinə etirazınız varmı" - sualına Arif Yunus "Mən özümü pis hiss edirəm. Məhkəmədə nədən danışıldığını belə bilmirəm" cavabını verib.

Leyla Yunus məhkəmə zalına əlindəki çəliyə dirənərək gətirilir, gözlərində qızartı var. O, zalda oturanlara müraciət edərək bildirir ki, telefon danışıqlarına və görüşlərinə qadağa qoyulub, səhhəti pisdir.

**"Səhiyyə Nazirliyinin əməkdaşı İftixar Qurbanov və Ədliyyə Nazirliyinin əməkdaşı Murad Məmmədov mənim görüşlərimə və telefon danışıqlarıma qadağa qoyub. Məni bu vəziyyətə gətiriblər", deyə o qeyd edib.**

Məhkəmə heyəti təqdim edilən zaman Leyla Yunus zərərçəkmişin nümayəndəsi kimi tanınan Şöhrət Allahmanova etiraz edib. **"Bu işdə zərəçəkən yoxdur. Rəna Səfərəliyeva və digərləri məhkəmədə zərər çəkmədiklərini bildirib. Zərərçəkmiş yoxdursa, onun nümayəndəsi burada olmamalıdır"**, deyə Leyla Yunus sədrlik edənə bildirib.

Bu zaman hakim vəsatəti baxılmamış saxlayıb və növbəti iclasda bununla bağlı yazılı vəsatət verilməsinin lazımlığını diqqətə çatdırıb.

Leyla və Arif Yunuslar rus dilində tərcüməçi ilə təmin olunub. Yunuslara məhkəmə sənədlərinin rus dilinə tərcümə olunmuş variantı bu gün təqdim olunub. Hakim Yunusların sənədlərlə tanış olması üçün məhkəmənin ilkin baxış iclasını oktyabrın 15-i saat 15-dək təxirə salıb.



# Asif Hüseynov Siyəzənə icra başçısı təyin edildi

**Asif Həbib oğlu Hüseynov Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.**

A.Hüseynov icra başçısı təyin edilənədək SOCAR-ın Sosial İnkişaf İdarəsində çalışıb və burada rəis müavini vəzifəsini tutub.

Yeni icra başçısının atası da neftçidir. A.Hüseynovun atası Həbib Hüseynov uzun illərdir ki, SOCAR-da işləyir və şirkətdə müxtəlif vəzifələr tutub.

# "Hər hansı əcnəbinin ölkəyə buraxılmaması Azərbaycanın suveren hüququdur"

**"Azərbaycanda keçiriləcək parlament seçkilərinə beynəlxalq media tərəfindən böyük diqqət var".**

APA-nın məlumatına görə, bunu Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev deyib. O bildirib ki, Azərbaycan Respublikasının "KİV haqqında" Qanununa əsasən xarici media nümayəndələrinin qeydiyyatı ilə bağlı müraciətlər XİN tərəfindən qəbul edilir: "Müsbət haldır ki, beynəlxalq KİV tərəfindən seçkilərə diqqət böyükdür".

H. Hacıyev "Amnesty International" təşkilatının iki əməkdaşının Azərbaycana buraxılmaması məsələsinə də toxunub: "Azərbaycan Respublikasının ərazisinə əcnəbi vətəndaşların daxil olması "Dövlət sərhədi haqqında", "Miqrasiya haqqında" qanunlar və digər hüquqi sənədlər əsasında tənzimlənir. Hər hansı əcnəbi vətəndaşın ölkə ərazisinə daxil olmasına icazə verilməməsi Azərbaycanın suveren hüququdur".

# Eynulla Fətullayev Avropada saxlanıb

Baş redaktor mühacir axınını işıqlandırmaq üçün gedib

**Araşdırmaçı-jurnalist Eynulla Fətullayev Fransanın Kale şəhərində yerli polis tərəfindən saxlanılıb. Virtualaz.org saytı xəbər verir ki, insident E.Fətullayevin rəhbərlik etdiyi haqqin.az saytının çəkiliş qrupu La-Manş tunelinin yaxınlığında bu tunel vasitəsilə Britaniyaya keçməyə çalışan qaçqınlar barədə reportaj hazırlayarkən baş verib.**

E.Fətullayevlə bərabər operator Əli Sultanov və rejissor İdris Heydərov da saxlanılıblar. Polis onların sənədlərini alıb. Hər üç jurnalisti polis maşınında saxlayıblar. Polis onların niyə saxlanıldıqları barədə suala cavab verməkdən imtina edib.

"Yeni Müsavat" isə xatırladır ki, E.Fətullayev Avropaya köç edən mühacir axını barədə silsilə reportajlar hazırlamaq üçün Avropaya gedib. Baş redaktor buradan videolu müsahibələr də hazırlayacaq.

❑ **SEVİNC**

# "Azərbaycan 2040-cı ilədək hasil edəcəyi qazı artıq satıb"

**Türkiyə tərəfi Rusiya qazından imtina etdiyi halda, bunu Azərbaycan qazı ilə kompensasiya etmək mümkün olmayacaq". "APA-Economics"in xəbərinə görə, bunu Azərbaycanın energetika nazirinin müavini Natiq Abbasov "Rambler. Xəbərlər" portalına açıqlamasında bildirib.**

Nazir müavininin sözlərinə görə, bunun səbəbi Azərbaycanın əlavə qaz həcminə malik olmamasıdır: "Azərbaycan 2040-cı ilədək hasil edəcəyi və ixrac üçün nəzərdə tutulan qazı artıq satıb. Əgər əlavə qazımız olsaydı, biz onu daxili tələbata yönəldərdik".



# Milli Məclis 2016-cı ilin dövlət büdcəsinin müzakirəsinə başlayır

**Oktyabrın 14-də Milli Məclisin plenar iclasında 2016-cı ilin büdcə zərfi müzakirəyə çıxarılacaq. Parlamentin mətbuta xidmətindən verilən məlumata görə, müzakirələr 15 oktyabrda da davam edəcək. Qeyd edək ki, 2016-cı il dövlət və icmal büdcələrin gəlirlərinin hesablamaları zamanı xam neftin satış qiymətinin 1 bareli üçün 50 ABŞ dolları götürülüb. Layihəyə görə, gələn ilin dövlət büdcəsinin gəlirləri 14566 mln. manat (bunun 6000 mln. manatı Dövlət Neft Fondundan transfertlər təşkil edəcək) proqnozlaşdırılıb.**

Gələn ilin dövlət büdcəsinin xərcləri isə16264 mln. manat proqnozlaşdırılıb. Büdcə kəsirinə gəldikdə, bu, gələn ilin dövlət büdcəsi layihəsində1698 mln. manat göstərilib. Müqayisə üçün qeyd edək ki, 2015-ci ilin dövlət büdcəsinin gəlirləri 17080 mln. manat, xərcləri 17730 mln. manat, kəsir isə 650 mln. manat olub. Bu isə o deməkdir ki, Azərbaycanın dövlət büdcəsinin gəlirləri 4872 mln. manat, xərcləri 4836 mln. manat proqnozlaşdırılıb.

Yeri gəlmişkən, Milli Məclisin hazırkı tərkibi bundan sonra daha iki iclasda toplaşacaqlar. Deputatların səlahiyyətlərinə isə yeni tərkibin ilk iclasının çağırılması ilə xitam veriləcək.

❑ **ELŞAD**



# Elza Seyidcahan: "O insanlar vətənini, xalqını, partiyasını da satar"

**Mərkəzi Seçki Komissiyası oktyabrın 11-də keçirdiyi iclasında əməkdar artist Elza Seyidcahanın namizədliyinin 54 saylı Şabran-Siyəzən DSK tərəfindən qeydə alınmaması barədə qərarı ləğv edərək onun namizədliyini qeydə alıb.**

Olanlar barədə Elza Seyidcahan "Yeni Müsavat"a açıqlama verib:

"Əsas odur ki, saxtakarlıq adı mənim üzərimdən götürüldü. Əgər bu haqsızlıq yerdə qalsaydı, mən daha heç vaxt bəstəkar kimi mahnı bəstələyə bilməzdim..."

Əməkdar artist bundan öncə ona qarşı təzyiq və təhdidlər edənlər barəsində də danışıb: "İnsan var ki, yalnız özünü fikirləşir, arzuladığı məqsədə çatmaq üçün hətta vətənini, xalqını, partiyasını da satar. Mən o insanlardan deyiləm. El arasında bizdə belə bir məsəl var: "Adımı sənə qoyum, səni yana-yana qoyum". Mənə şər atanlar öz adlarını mənə qoya bilmədilər. Mən özümü seçilmiş hesab edirəm. Çünki mənə etimad göstərən şəxslər yenidən mənə imza atdı. Mən yenidən 550 səsi toplaya bildim. Fəhlələr, müəllimlər şəxsiyyət vərəqələrinin şəkillərini çəkib mənə yolladılar. Onlar mənim tapdalanmş hüququmu müdafiə etdilər. Onların hər birinə sağ ol deyirəm".

Qeyd edək ki, bir neçə gün bundan öncə 54 saylı Şabran-Siyəzən seçki dairəsindən öz təşəbbüsü ilə namizədliyini irəli sürən əməkdar artist Elza Qasımovanın (Seyidcahan) namizədliyi qeydə alınmamışdı. DSK-nın verdiyi qərara görə toplanan imzaların 43-ü etibarsız sayılıb, imza verən 180 seçici isə imzasından imtina edib.

Əməkdar artistin şikayəti əsasında MSK İşçi Qrupunun apardığı araşdırma zamanı məlum olub ki, 78 nəfərin imzalarından imtina etməsi əsaslıdır, 102 nəfərin imzasından imtina ərizələri isə əsaslı deyil. MSK İşçi Qrupu hesab edib ki, etibarlı sayılan imzalar da E. Seyidcahanın namizəd kimi qeydə alınması üçün yetərlidir.

❑ **Xalidə GƏRAY**

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



# "Büdcə vəsaiti qənaətlə işlədilməlidir"

## Prezidentin sədrliyi ilə Nazirlər Kabinetinin ilin 9 ayının yekunlarına dair iclası keçirildi

**Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. Prezident bu il dünyada davam edən böhrana, neftin qiymətinin kəskin düşməsinə, ölkəmizə qarşı əsassız təzyiqlərə və bəzi hallarda təxribatlara baxmayaraq, ötən 9 ayda Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini bildirib.**

Bu dövrdə iqtisadiyyat 3,7 faiz, sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi 10 faizdən çox, kənd təsərrüfatı istehsalı 6,7 faiz artıb. İlin 9 ayında inflyasiya 3,7 faiz təşkil edib, əhalinin pul gəlirləri 5,8 faiz artıb, ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub.

Dövlətimizin başçısı sosial sahədə icra olunan layihələrdən danışarkən qeyd edib ki, ötən dövrdə ölkədə 34 məktəb, 26 uşaq bağçası, 11 tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı xeyli iş görüldüyünü deyən prezident xüsusilə ünvanlı sosial yardımın verilməsində şəffaflığın təmin edildiyini vurğulayıb və bildirib ki, indi 500 min insan, yəni 114 min ailə ünvanlı sosial yardım alır. Yeni iş yerlərinin yaradılması istiqamətində dövlət siyasətinin ardıcıl həyata keçirilməsi nəticəsində 9 ayda ölkədə 87 min yeni iş yerinin açıldığını, bunun da 67 mininin daimi olduğunu deyən İ.Əliyev qazanılan uğurları ölkəmizin müstəqil siyasət aparması və Azərbaycanda sabitliyin və təhlükəsizliyin təmin olunması, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi ilə əlaqələndirib.

Dövlət başçısı bu il ölkəmizin tranzit imkanlarının genişləndirilməsi üçün əlamətdar hadisələrin baş verdiyini, Çindən Azərbaycana ilk konteyner qatarının gətirildiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycan hissəsinin tikintisinin başa çatdığını bildirib. "Cənub" qaz dəhlizinin yaradılması ilə bağlı bu ilin 9 ayında xeyli iş görüldüyünü, "Şahdəniz-2" yatağının işlənməsi, TANAP layihəsinin icrası ilə bağlı ciddi addımların atıldığını diqqətə çatdırıb.

Ordu quruculuğu ilə bağlı da ölkədə mühüm işlərin görüldüyünü, bu sahənin gələn il də prioritet olacağını, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlərin görüləcəyini vurğulayan prezident təmas xəttində Azərbaycanın tam üstünlüyə yiyələndiyini, düşmənin bütün təxribatlarının qarşısının alındığını, ötən ay təmas xəttində düşmənin təxribat qrupunun məhv edildiyini, onların ağır itkilər verdiyini bildirib. **"Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır"**, - deyən İlham Əliyev Ermənistandakı kriminal diktatura rejiminin Dağlıq Qarabağın Ermənistanın ayrılmaz hissəsi olması ilə bağlı verdiyi bəyanata toxunaraq deyib ki, dünya birliyi və beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. **"Bu gərgin psixoloji durumda verilən bəyanat Ermənistan rəhbərliyini ifşa və biabır edir"**, - deyən dövlətimizin başçısı xunta rejimindən bundan artığını gözləməyin mümkün olmadığını diqqətə çatdırıb: "Azərbaycan güclü ölkədir, iqtisadi və siyasi sahədə böyük uğurlara imza atıb və regional məsələlərdə mühüm rol oynayır, ölkəmizin iştirakı və razılığı olmadan bölgədə heç bir layihə icra oluna bilməz".

Prezident iqtisadi və hərbi potensialın Azərbaycanın gücünü daha da artırdığını bəyan edib.

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, səhiyyə naziri Oqtay Şirəliyev, təhsil naziri Mikayıl Cabbarov bu ilin 9 ayında görülən işlərlə bağlı məruzə ediblər.

Yekun nitqində prezident bildirib ki, qlobal rəqabətlilik qabiliyyətinə görə Davos İqtisadi Forumu ölkəmizi 40-cı yerdə qərarlaşdırıb. Bununla da Azərbaycan MDB-də birinci yerdədir, beynəlxalq reytinq agentlikləri də ölkəmizin reytinqlərini yüksəldib. Ölkədə maliyyə intizamının gücləndirilməsinin, izafi xərclərə yol verilməməsinin vacibliyini deyən dövlətimizin başçısı bildirdi ki, prioritet təşkil etməyən layihələrə vəsaitin ayrılması dayandırılmalı, büdcə xərclərinin strukturuna yenidən baxılmalı və büdcə vəsaiti qənaətlə işlədilməlidir. Bundan əlavə, sahibkarlar vergiləri vaxtında ödəməli, onların qarşısında əsassız ödəmələrlə bağlı tələb qoyulmamalıdır. Korrupsiya ilə mübarizə hallarının daha da gücləndirilməsinin, bu sahədə sistem xarakterli islahatların davam etdirilməsinin, "ASAN xidmət"in fəaliyyətinin genişləndirilməsinin zəruri olduğunu deyən prezident korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə ictimai nəzarətin də gücləndirilməsinin əhəmiyyətindən danışıb. Dövlət başçısı deyib ki, ölkədə dayanıqlı inkişafın təmin olunması üçün bundan sonra da sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılmalı, xarici sərmayələr daha çox qeyri-neft sektoruna cəlb olunmalı, biznes mühiti yaxşılaşdırılmalı, yoxlamaların tənzimləmə mexanizmləri hazırlanmalı, yoxlamaların və lisenziyaların sayı kəskin şəkildə aşağı salınmalıdır.

İlham Əliyev kənd təsərrüfatının və sənayenin inkişafı, meliorativ tədbirlərin görülməsi, yeni əkin sahələrinin yaradılması, bundan əlavə, dərman bazarında vəziyyətə nəzarətin daha da gücləndirilməsi, metronun yeni stansiyalarının tikintisinin davam etdirilməsinin də vacibliyini diqqətə çatdırıb.

Birinci Avropa Oyunlarının ölkəmizə marağı daha da artırdığını, turizm sektorunun inkişafına təkan verdiyini deyən dövlətimizin başçısı gələn illərdə keçiriləcək idman tədbirlərinin də bu baxımdan əhəmiyyətli olacağını bildirib.

Prezident "Cənub" qaz dəhlizinin tikintisi ilə bağlı tədbirlərin vaxtında həyata keçirilməsinə dair tapşırıqlarını verib, ilin sonuna qədər nəzərdə tutulan bütün tədbirlərin uğurla reallaşacağına əminliyini ifadə edib.

# Ziya Məmmədovun qardaşı oğlu saxlanıldı



## Aynar Məmmədova məxsus kafedə əməliyyat keçirildi; "Nar cafe"də qumarxana təşkil etdiklərinə görə deputat oğlu və dostları məhkəmə qarşısına çıxarıldılar

**Oktyabrın 11-də gecə saatlarında nəqliyyat naziri Ziya Məmmədovun qardaşı, deputat Elton Məmmədovun oğlu Aynar Məmmədova məxsus olan, "Şüşəli bazar"ın yanındakı "Nar" kafesini xüsusi təyinatlılar mühasirəyə alıb, içəridəkiləri, o cümlədən kafenin sahibi Aynar Məmmədovu həbs edib. Həbs edilənlər Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb.**

Bu barədə məlumat ilk olaraq sosial şəbəkədə yayılıb. Məlumatda qeyd edilirdi ki, Aynar Məmmədovla birlikdə, həmin vaxt kafedə olan daha 20 nəfərə yaxın məmur övladı həbs edilib. Həbs edilənlərdən biri də Xəzər rayonunun icra başçısının müavini Vaqif Həsənovun oğludur. Saxlanılan şəxslərin A.Məmmədovun dostları olduğu bildirilir.

Oktyabrın 12-də günün birinci yarısında deputat Elton Məmmədov bu xəbəri təkzib etməyə çalışsa da, sonradan rəsmi qurumlar "Nar" kafesində əməliyyat keçirildiyini və həbslər olduğunu təsdiqlədilər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a göndərilən məlumatda "Nar" kafedə polisin əməliyyat keçirdiyi rəsmi şəkildə təsdiqlənib.

Qurumun şöbə rəisi Orxan Mansurzadə bildirib ki, həqiqətən də daxil olmuş məlumat əsasında polis əməkdaşları tərəfindən oktyabrın 11-də "Nar" kafesində qanunsuz mərc oyunlarına qarşı mübarizə üzrə tədbir keçirilib, bu zaman 8 nəfər saxlanılıb: **"Onlar barəsində inzibati qaydada protokol tərtib olunaraq cərimə olunmaları üçün məhkəməyə göndərilib".**

Daha sonra məlum oldu ki, əməliyyat zamanı saxlanılan şəxslər, o cümlədən Aynar Məmmədov məhkəmə qarşısına çıxarılıb.

Nərimanov Rayon Məhkəməsində saxlanılan şəxslərlə bağlı İnzibati Xətalar Məcəlləsinin 199-3-cü maddəsi ilə inzibati protokol tərtib edilib. Bu maddə ilə təqsirləndirilən şəxslər 1500 manatdan 2000 manatadək cərimə olunur.

Nərimanov Rayon Məhkəməsindən "Qafqazinfo"ya bildirilib ki, "Bandotdel" tərəfindən saxlanılan və sanksiya ilə məhkəməyə gətirilən şəxslər cərimələndikdən sonra sərbəst buraxılıblar.

Bütün bu xəbərlərdən sonra "Nar cafe"də keçirilən əməliyyat zamanı saxlanılan, məhkəmə qərarı ilə cərimələnərək sərbəst buraxılan Aynar Məmmədov özü hadisə ilə bağlı danışıb. O, atv.az-a açıqlamasında bildirib ki, hazırda işdədir: **"Deyə bilərəm ki, adıçəkilən obyektdə dünən yoxlama olub. İki nəfər gəlib, 10-15 dəqiqə ərzində yoxlama aparıb, heç bir problem çıxmayıb. Onlar da çıxıb gediblər".**

Maraqlıdır ki, Aynar özü hadisəni təsdiqləsə də, atası Elton Məmmədov xəbəri təkzib etmişdi: **"Bu məlumatlar yalandır, boş şeylərdir. Belə yalan məlumatlara görə məni narahat etməyin. Aynar hazırda işdədir".**

Onu da qeyd edək ki, E.Məmmədov təkzib ustasıdır. Övladının xoşagəlməz əməlləri ilə bağlı mətbuatda dərc olunan və fakt şəklində heç bir halda təkzib olunmayan xəbərlərin ata Elton Məmmədov tərəfindən yalanlanması birinci hadisə deyil. Bundan əvvəl də o, oğlunun adı qarışan qalmaqallarda yazılanları, deyilənləri qətiyyətlə təkzib etmişdi. Məsələn, oğlu yenicə aldığı avtomobilləri ilə şəklini paylaşdığı, təbriklər qəbul etdiyi halda, Elton Məmmədov demişdi ki, oğlunun belə maşını yoxdur. Elə çıxırdı ki, Aynar Məmmədovun özgələrinin maşını ilə şəkil çəkdirmək və bunu sosial şəbəkədə yaymaq kimi xobbisi var.

**

Gecə saatlarında xüsusi təyinatlıların əməliyyatına məruz qalmış "Nar" kafesi hazırda öz fəaliyyətini davam etdirir. Bu barədə müsavat.com-un hadisə yerində olan əməkdaşı xəbər verib.

Əməkdaşımız şahidi olub ki, Ziya Məmmədovun qardaşı oğlu, millət vəkili Elton Məmmədovun oğlu Aynar Məmmədova məxsus iaşə obyektində hazırda boşluqdur, yalnız kafedə çalışanlar var.

Musavat.com-un əməkdaşı bildirib ki, kafedə işçilərin Nəriman müəllim kimi müraciət etdikləri şəxs əyləşib və servis getdikcə bərpa olunub: **"Orada olarkən öyrəndik ki, kafedə sözügedən əməliyyat ayın 11-dən 12-nə keçən gecə aparılıb. Kafedə qumar oynayan 20 nəfər saxlanılıb"**. Əməkdaşımız orada olarkən Nəriman adlı şəxs yanındakılardan Aynarın vəziyyətini soruşub. Onlar isə Aynardan xəbərləri olmadıqlarını bildiriblər.

Reportyorumuz qeyd edir ki, kafedə bir fincan sadə qara qəhvəni ona 4 manata satıblar.







YENİ MÜSAVAT
N 226 (6254) 13 oktyabr 2015

# Media və siyasət cameəsi niyə ANS-i müdafiə etmir?

**ANS telekanalı ilə bağlı gedən proseslər medianın gündəmindədir. Milli Teleradio Şurası səviyyəsində verilən açıqlamalar, qarşı tərəfin bunu təkzib edən cavabları müzakirə mövzusudur. Proseslərin gedişi isə telekanalın ciddi şəkildə hədəfə gəldiyini göstərir. Bir-birinin ardınca bağlanan verilişlər, yüksək məbləğdə cərimələr və kanalla bağlı MTRŞ rəsmiləri tərəfindən ciddi tənqidlər... Bunların fonunda isə cəmiyyətdə ANS-lə bağlı dəstək kampaniyası özünü göstərmir. Daha doğrusu, ziyalılar, media kapitanları, siyasətçilərin telekanalı dəstəkləyən bəyanatları, ənənəvi kampaniyalar müşahidə olunmur. Bunun səbəbi nədir?**



**Rauf Arifoğlu:**
"ANS-in söz və mətbuat azadlığı anlayışına heç bir aidiyyəti yoxdur"



**Mehman Əliyev:**
"Telekanal rəhbərliyi heç vaxt maraqlı olmayıb ki, onu müdafiə etsinlər"



**Arif Hacılı:**
"ANS-in son dövrlərdə tutduğu mövqe təzyiqlərlə üzləşdiyi məqamda mühüm rol oynayır"

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu** bildirdi ki, ANS-lə bağlı baş verənlər media və söz azadlığının məhdudlaşdırılması prosesi deyil. Onun fikrincə, bu, başqa kateqoriyadan, başqa xarakterdən olan məsələdir: "Ölkədə söz azadlığının məhdudlaşdırılması proseslərində ANS hər zaman hakimiyyətin yanında, mətbuatın qarşısında olub. "Yeni Müsavat"a və mənə qarşı xüsusi aqressiv, qərəzli mövqe nümayiş etdirib. Bizi dəfələrlə məhkəməyə verib, hətta mən siyasi motivlərlə həbsə alınanda belə, məni orada rahat buraxmayıblar, məhkəməyə veriblər. İndiki halda isə ANS-in söz və mətbuat azadlığına hər hansı bir formada faydalı olduğunu düşünmürəm. Bu telekanal illərdir ki, bizim üzümüzə, o cümlədən də müxalifətin üzünə bağlıdır. Mən zamanında onlara dəstək olmuşam - Cəlal Əliyev Mirşahinə o sözləri deyəndə cavab verməyə cəsarət etmirdilər - mən efirə çıxıb, cavab vermişəm. Lakin vəziyyətləri yaxşılaşan kimi bizi məhkəməyə veriblər, dəfələrlə barəmizdə "qara piar" kampaniyası aparıblar. Mənim şəxsi qənaətim budur ki, bu cür televiziyanın ölkədə fəaliyyət göstərməsindənsə göstərməməsi daha məqsədəuyğundur".

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev isə bu məsələdə fərqli mövqe nümayiş etdirir. O hesab edir ki, ümumiyyətlə, ANS-in müdafiəyə ehtiyacı yoxdur və özü öz problemlərini həll edir:** "Özü də maraqlı deyil ki, kimsə bu məsələyə qarışsın. Onlar istəmirlər ki, bu prosesi siyasiləşdirsinlər. Bunu münasibət kimi görürlər".

**M.Əliyev bildirdi ki, Milli Teleradio Şurası ilə onların arasında problemlər var. Müsahibimizin sözlərinə görə, bu məsələdə sözügedən qurumun mövqeyi, münasibəti açıq-aydın hiss olunur:** "Bu, hər zaman belə olub. ANS heç vaxt maraqlı olmayıb ki, onu müdafiə etsinlər. Nə bir çağırış, nə də bir istək olub. Mediaya gəlincə, media kimisə müdafiə etmək gücündə deyil. Medianın hərəsi öz işi, öz kiçik biznesi ilə məşğuldur. Heç kim bu məsələlərə qarışmaq istəmir. Media həmrəyliyi geridə alıb".

**Müsavat Partiyasının başqanı Arif Hacılı isə hesab edir ki, ANS-in son dövrlərdə tutduğu mövqe indi həmin televiziya təzyiqlərlə üzləşdiyi məqamda mühüm rol oynayır. Onun fikrincə, bu hadisənin geniş müdafiə kampaniyası ilə müşayiət olunmaması məhz bununla bağlıdır:** "İstənilən halda, hakimiyyət strukturlarının mətbuat üzərinə bu şəkildə hücumları hakimiyyətin ölkədə mətbuat orqanlarını, xüsusən televiziya kanallarını öz nəzarəti altında saxlamaq siyasətinin davamıdır".

"Konkret olaraq Müsavat Partiyası ANS-i müdafiə üçün hansısa addım atacaqmı" sualına cavabda partiya başqanı dedi ki, onun fikrincə, ANS özü bu vəziyyətdən çıxmağın bir yolunu tapacaq.

❑ **Sevinc TELMANQIZI**

# Nəqliyyat Nazirliyində kim nə qədər "paket" alır?

## 50 min manatdan 100 manatadək...

**(əvvəli ötən sayımızda)**

**Nəqliyyat naziri Ziya Məmmədovun ən yaxın çevrəsinə daxil olan şəxslərin nəqliyyat sistemində tutduqları vəzifələrdən uzaqlaşdırılaraq istintaqa cəlb olunması, hətta oğlu Anar Məmmədovun da istintaqçıların sorğu-sualından ən son anda yayınaraq ölkədən getməsi xəbəri var. Qaynağımız bildirib ki, Z.Məmmədov 13 illik nazirliyi dövründə Nəqliyyat Nazirliyini podratçı şirkət kimi idarə edib, şəxsi maraqlarına tabe etdirib. Hazırda nazirlikdə, nazirliyə tabe MMC və qurumlarda yoxlamalar gedir.**

Ötən sayımızda Nəqliyyat Nazirliyindəki bütün gəlirlərə nazirin qohumlarının nəzarət etdiyini qeyd etmişdik. Redaksiyamıza daxil olan məlumatlarda bildirilirdi ki, Məmmədovlar ölkə daxilində yükdaşımalarına nəzarət etməklə hər il yüz milyonlarla manat gəlir əldə edirlər. Bu sahənin qeyri-rəsmi kuratoru nazirin qardaşı İmran Məmmədovun oğlu Rövşən Məmmədovdur. Redaksiyamıza daxil olan məlumatda deyilir ki, Rövşən Məmmədovun fəaliyyətini Bakıda Avropa Oyunları keçirilən günlərdə Vergilər Nazirliyinin əməkdaşları yoxlayıb. O günlərdə onu Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə aparıb 7-8 saat saxlayıblar. Sonradan sərbəst buraxılan R.Məmmədov oktyabrın ilk günlərində yenidən saxlanılıb və buraxılıb. Az əvvəl tutduğu postdan uzaqlaşdırılan "Bakısərnişinnəqliyyat" MMC-nin direktor müavini Davud Əfəndiyev də istintaqa cəlb olunub. Qaynağımız bildirir ki, nəqliyyat nazirinin bacısı oğlu olan D.Əfəndiyevin adı Korrupsiyaya Qarşı Mübarizə İdarəsində araşdırılan bir cinayət işində keçir. 2 ay əvvəl başlanan cinayət işinin əsasını bir neçə milyon manatın mənimsənilməsi, ələ keçirilməsi təşkil edir. İşdən çıxarılmasına baxmayaraq, bu gün də qeyri-leqal olaraq Beynəlxalq Avtovağzal Kompleksində oturması haqda məlumat var. Bu ilin sentyabrında kompleksə rəhbər təyin olunan Seymur Aslanovun da nəqliyyat nazirinin kadrı olduğu bildirilir.



Kompleksin hazırda faktiki olaraq Davud Əfəndiyev tərəfindən idarə edildiyi qeyd olunur.

Nəqliyyat Nazirliyinə tabe olan və Binəqədi rayonunda yerləşən "Yük daşımaları" MMC vasitəsilə nəzarət olunur. MMC-nin kassa işlərinə İftixar adlı şəxs nəzarət edir. Bu şəxs Məmmədovların adamı hesab olunur. Sahibkarlardan qeyri-rəsmi pullar onun vasitəsilə alınır.

***

Nəqliyyat nazirinin, onun qardaşlarının var-dövləti haqda əfsanələr dolaşır. Qaynağımız iddia edir ki, Ziya Məmmədovun ölkə ərazisində ümumilikdə 38 villası var. Həmin villaların bir neçəsi nazirə hədiyyə olunub. Onun qardaşlarının mülkləri haqda da məlumatlar var. Nəriman Məmmədov Biləcəri qəsəbəsində yerləşən hərbi şəhərciklərdən birini özəlləşdirib və orada villalar tikib. Şəhərcik ərazisində inşa olunmuş 15 villanın xüsusi qoruması var. Əraziyə giriş mühafizə postundan keçməklə mümkün olur.

Bu ilin aprelinə qədər Nəqliyyat Nazirliyinin xətti ilə həyata keçirilən sərnişin daşımalarından gəlirlərin böyük hissəsinə nazirin Ucardan olan qohumu İradə xanım vasitəsilə nəzarət olunub. Pul axını həmin qadın üzərindən baş tutub.

Nəqliyyat Nazirliyinə tabe olan ən gəlirli sahələrdən birinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti (DANX)olduğunu qeyd etmişdik. Qaynağımız bildirmişdi ki, bu baxımdan DANX rəisi postuna öz adamını təyin etdirmək üçün daim klanlararası gərgin mübarizə gedir. Bu il avqustun 3-də Ziya Məmmədov "Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi"(NİİM) MMC-nin baş direktoru Elnur Nazim oğlu Abdullayevi tutduğu postdan azad edərək DANX-yə rəis təyin edib. Bu postun rəisinin aylıq gəlirinin - ona verilən paketin 50 min manata yaxın olduğu bildirilir. Qeyd olunur ki, bu xidmət vasitəsilə hər ay milyonlar toplanır. DANX-də Kadrlar İdarəsinin İmran adlı rəisi nəqliyyat nazirinin dostunun oğludur. Vaxtilə ədliyyə sistemindən çalışmış bu şəxs oradan işdə buraxdığı səhvlərə görə çıxarılıb. Məmmədovların büdrədiyi bu günlərdə İmran DANX-də tutduğu vəzifəsini itirib. Hazırda onun barəsində cinayət işinin olduğu da bildirilir. DANX rəisinin 1-ci müavini Ziya Məmmədovun qudası, deputat Əlağa Hüseynovun kürəkənidir. Vaxtilə Yasamal Mühafizə Polisində işləyib. Həftədə 1 dəfə işə çıxan 1-ci müavinin hər dəfə fərqli maşında işə gəldiyi bildirilir. Ayda 4-5 dəfə işdə olan 1-ci müavinin 30 min manat paket aldığı qeyd olunur.

Qaynağımız bildirib ki, Nəqliyyat Nazirliyinin sürücülərə qarşı qəddar davranışı ilə seçilən Nəqliyyat Müfəttişliyindəki işçilərin böyük əksəriyyəti - təxminən 70 faiz müfəttiş heç bir sənədləşmə aparılmadan işə götürülürlər. Kifayətdir ki, nəqliyyat müfəttişi olmaq istəyən şəxs idmançı görkəmli olsun. Küçədən tutulmuş bu şəxsləri nəqliyyat müfəttişliyinə məxsus maşınlara verirlər. Maşınlardakı ekipajlardan yalnız "starşı"lar rəsmi işçidir. Onlar ayda 1500, müfəttişlər isə 1000 manat paket alırlar. Müfəttişlərə verilən əmr isə 1 bənddən ibarətdir - mümkün qədər çox maşın saxlayıb sürücülərin sənədini almaq.

Qaynağımız deyir ki, böyük təmtəraqla Bakıya gətirilən London taksiləri də Məmmədovların şəxsi gəlir mənbəyinə çevrilib. Daxili qaydalara görə, Bakı küçələrində şütüyən London taksilərinə 3 aydan bir texniki baxış keçirilməli, işlənərək sıradan çıxmış hissələr yeniləri ilə əvəzlənməlidir. Sənəd üzərində əvəzlənən hissələrin pulunu şirkət ödəməlidir. Faktiki isə sürücülər ödəyir. Servis xidməti üçün şirkətə müraciət edən maşınlar təmir olunmuş kimi rəsmiləşdirilir və təmir xərcləri şirkətin hesabından silinir. Bu səbəbdən də London taksiləri tez-tez təmirə saxlanmış kimi rəsmiləşdirilir, təmir xərcləri isə nağdlaşdırılaraq ələ keçirilir. Bu işlərə də Rövşən Məmmədov rəhbərlik edir.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 226 (6254) 13 oktyabr 2015

## Məmmədovlar klanını qara günə Ağ Ev iddiası qoyub




# Ziya Məmmədovu bitirən şok səbəb - "siyasi xəyanət"

ABŞ-da prezident seçkilərinin ilkin mərhələsi başladıqdan sonra nazir və oğlu Azərbaycan iqtidarını şərikləri olan Donald Trampa həm maddi, həm də siyasi dəstək verməyə razı salmaq istəyiblər; Məmmədovların niyə uzaq Amerikada olan seçkilərlə bu qədər ciddi maraqlanmasının səbəbi üzə çıxdıqda isə...

**Nəqliyyat naziri Ziya Məmmədovu hakimiyyətin qəzəbinə gətirən səbəblər haqda "Yeni Müsavat"a daha bir sensasion məlumat daxil olub. Xəbərə görə, nazirin "vurulması" heç də Nəqliyyat Nazirliyindəki maliyyə maxinasiyaları ilə bağlı deyilmiş. Həqiqətən də 13 ildir nazir olan Z.Məmmədov bu illər ərzində iqtidarla işini "zərgər dəqiqliyi" ilə görməyə çalışıb. Mənbə deyib ki, onun qəfil "ilişməsi" və bütün yollarının bağlanmasına əsl səbəb Məmmədovların siyasi ambisiyaları imiş.**

Həm Heydər Əliyev iqtidarı, həm də İlham Əliyevin prezidentliyi dönəmində hakim komandada yanlış davranış sərgiləyənlərə, hətta müxalifətə maliyyə dəstəyi verənlərə münasibətdə güzəşt olub - belələri canlarını vəzifələrini itirməklə qurtara biliblər. Lakin bu iqtidarlar onun arxasından iş çevirərək, siyasi xəyanət yolunu tutanları heç vaxt bağışlamır. 2005-ci ildə iki nazirin kabinetində qandallanması buna sübutdur. Prezident İlham Əliyev onlardan biri - sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin həbsi ilə bağlı danışarkən onu yanına çağırdığı və siyasi xəyanətlə bağlı söhbət etdiklərini açıqlamışdı. Prezident demişdi ki, F.Əliyev faktları təkzib etmiş, hətta Qurana and içmişdi. Amma hakimiyyət F.Əliyevin gərək ki, Amerika səfiri ilə (və Rəsul Quliyevlə) təmasları barədə təkzibolunmaz faktlara sahib idi və bu səbəbdən nazir 9 il (2005-2014) həbsdə yatmalı oldu. Əslində korrupsiyada deyil, "siyasi xəyanətdə" ittiham olunan Əli İnsanov isə hələ də həbsdədir...

Məlumatda deyilir ki, Ziya Məmmədovu bitirən səbəb onun oğlunun amerikalı şəriki, daşınmaz əmlak və kazino maqnatı, milyarder Donald Trampla ilişkiləridir. Məlumdur ki, Respublikaçılar Partiyasından prezidentliyə namizəd olmaq istəyən 16 nəfər sırasında Donald Tramp da var. Tramp gözlənilmədən çox uğurlu kampaniya aparır və partiyadaxili praymerzlər onun gələn il keçiriləcək prezident seçkisində respublikaçılardan ən şanslı namizəd olacağını göstərir. Trampın hazırkı yüksəlişinin arxasında onun xarizmatik personası, liderlik qabiliyyəti, özünəməxsus stili və ən başlıcası, Amerika cəmiyyətində tanınması böyük rol oynayır.

Donald Trampın adı Azərbaycanda nəqliyyat nazirinin oğlu Anar Məmmədovun ortağı kimi məşhurdur. Bakının Nərimanov rayonunda, Heydər Əliyev Mərkəzinin bir addımlığında tikilmiş mehmanxana-apartament əvvəl "Baku Towers" adlansa da, sonradan Məmmədovların amerikalı milyarder şərikinin istəyi ilə "Trump Towers" olaraq dəyişib. Maliyyə sənədlərində A.Məmmədovun hotelini idarə etmək üçün "THC Baku Hotel Manager Services LLC", "THC Baku Hotel Manager Services Member Corp." , "THC Baku Services LLC" və "THC Baku Services Member Corp." adlı şirkətlər təsis edilib. Həmin şirkətlərin ikisində Donald Tramp 100 faiz, ikisində isə 99 faiz paya malikdir. Xəbərlərə görə, Məmmədovların Trampla başqa şərikli biznesləri də var.

Bir müddət əvvəl ABŞ-dakı nüfuzlu "Mother Jones" jurnalı "Donald Tramp mübahisəli azərbaycanlı oliqarxla ortaq biznes qurub" başlıqlı araşdırma dərc edərək, onu "öz vəzifəsindən ailəsinin varlanması üçün istifadə etməkdə ittiham olunan Azərbaycan hökumət məmurunun oğlu ilə əməkdaşlıq"da suçlamışdı. "Mother Jones" yazırdı ki, Tramp adının bu hoteldə istifadə edilməsinə və layihə ilə bağlı təcrübəsinə görə sərfəli komission qazanıb. ABŞ prezidentliyinə iddiaçı kimi bu yaxınlarda açıqladığı maliyyə hesabatına əsasən, Donald Tramp ən azından ötən il Bakıdakı hotellə bağlı işlərə görə Məmmədovlardan 2,5 milyon dollar alıb.

Bir neçə ay əvvəl milyarderin qızı, "The Trump Organization"in vitse-prezidenti İvanka Tramp da Bakıda olmuşdu və tikinti meydançasına şəxsən baş çəkmişdi. Hotel hələ bu ilin may ayında açılışa hazırlansa da, bu açılış ləngidi. Hələ o zaman belə iddialar vardı ki, hotelin açılışının ləngiməsi amerikalı milyarderin personası ilə bağlı ola bilər. Ehtimal olunurdu ki, iqtidar Ağ Ev sahibi Barak Obamaya müxalifətdə olan Respublikaçılar Partiyasının üzvünün Bakıda mehmanxana açmasını Vaşinqtonla münasibətlərin daha da gərginləşə biləcəyi səbəbindən ertələyə bilərdi.

Amma Məmmədovlar ətrafında baş verən son proseslər, A. Məmmədovun 2011-ci ildə yaratdığı və böyük piar kampaniyası apardığı Amerika-Azərbaycan Alyansının bir gecədə müəmmalı şəkildə bağlanması "siyasi xəyanət" iddiasını inandırıcı edir. Eyni zamanda bu yerdə onu da vurğulamaq lazımdır ki, nazir oğlu bu təşkilat vasitəsilə çoxmilyonlu vəsaitlər mənimsəyib və "maliyyə xəyanəti"nə də yol verib.

Məlumata görə, ABŞ-da prezident seçkilərinin ilkin mərhələsi başladıqdan sonra nazir hakimiyyətdən Trampa dəstək almağa çalışıb. Məmmədovlar iqtidarı Trampa həm maddi, həm də siyasi dəstək verməyə razı salmaq istəyib. Bu işdə daha çox fəallığı isə A.Məmmədovun etdiyi iddia olunur. Bu məsələdə artıq israr etməyə başlayan Məmmədovlar dövlətin mühüm təsisatının qərarını gözləmədən bu dəstəyi öz xətləri ilə etməyə başlayıblar. O zaman da şübhələr yaranıb ki, hakimiyyətdə yüksək mövqe tutan Məmmədovlar niyə uzaq Amerikada olan seçkilərlə bu qədər ciddi maraqlanırlar? Yəni səbəb yalnız şəriklikdirsə, Trampun Məmmədovların parasına və ya dəstəyinə niyə bu qədər ehtiyacı olsun ki? Üstəlik, Azərbaycan hakimiyyəti Amerika prezidentliyinə namizədlərdən kiməsə dəstək verərsə, niyə bunu Məmmədovların əli ilə etsin ki?

Sensasion məlumat budur ki, Məmmədovlar təbii ki, Trampun Ağ Evə sahiblənəcəyi təqdirdə *(bu ehtimal çox az da olsa, var)* Azərbaycanda daha da qüdrətlənəcəklərini proqnozlaşdırıblar. Bəlkə də onlar üçün hansı əlavə imkanların yaranacağı barədə eyforiyaya da qapılıblar. Nəticədə siyasi savadı və proseslərə çox da dərin yanaşması olmayan ata-oğul Məmmədovlar bu cür siyasi oyunların qurbanına çevriliblər. Məmmədovlar "yaxanı ələ verdikdə" "Azərbaycana böyük dost qazandırmaq" kimi izahatları iqtidarı qane etməyib. İstisna deyil ki, hakimiyyət bu ilişkilərlə bağlı daha səhih məlumatlara malik olduğu üçün Məmmədovlar barədə qəti qərar verib.

İqtidar indiyədək bir neçə naziri yola salıb, amma heç biri bu qədər səs-küylü və uzun proses olmayıb. Məmmədovları sanki hansısa bilinməyən günahları səbəbindən günbəgün bitirirlər. Oktyabrın 11-də nazir Ziya Məmmədovun qardaşı oğlu Aynar Məmmədova məxsus olan "Nar" kafesində qanunsuz qumar (mərc) oyunlarına qarşı əməliyyat keçirilib və 8 nəfər saxlanılıb. Onlar barəsində inzibati qaydada protokol tərtib olunaraq cəriməolunmaları üçün məhkəməyə göndərilib. Bundan əvvəl isə belə xəbər vardı ki, nazirin evində və villasında axtarış aparılıb. Artıq Məmmədovların ev və əmlaklarına əl qoyulması prosesi başlayıb ki, bu, nazirin hər an işdən çıxarılacağına açıq vurğudur.

Bəs ən qüdrətli nazir işdən çıxarıldıqdan sonra nə olacaq? Bu sualın cavabını bəlkə Məmmədovların özü belə bilmir...

❑ "Yeni Müsavat"

# Proqnozlar bədbindir



Azər RƏŞİDOĞLU

**Neft erası bitir. Azərbaycan postneft dövrünə hazırdırmı? Hakimiyyət nümayəndələri özləri etiraf edirlər ki, Azərbaycanda və bölgədə iqtisadi durum kritik nöqtəyə transfer etməkdədir.**

İqtidarın 25 illik iqtisadi fəaliyyəti endşpil mərhələsinə qədəm basır. Artıq Azərbaycanın "regionun lider dövləti olması" fikri ilə ictimai rəyi manipulyasiya etmək də mümkün deyil. Manatın devalvasiyası, daxili istehsalın olmaması ölkədəki vəziyyəti daha da ağırlaşdırır. Ölkə valyutasının məzənnəsinin qeyri-sabitliyi bir çox şirkətləri iflasa uğrada bilər. Əslində Azərbaycandakı iqtisadi böhranın dərinləşməsi sürətlənib. Keçən ilin sonunda Azərbaycan hökuməti neftin qiymətinin 100 dollardan yüksək olacağını proqnozlaşdırırdı. Öncədən bəlli idi ki, bu nikbin proqnozun heç bir ciddi əsası yoxdur. Nüfuzlu analitik mərkəzlər neftin ucuzlaşması ehtimalının kifayət qədər yüksək olduğunu proqnozlaşdırırdılar. Bunun üçün xeyli iqtisadi əsaslandırma da mövcud idi - Avropa Birliyi ölkələrində və ABŞ-da borc böhranı genişlənməkdə idi. Təbii ki, borc böhranının genişlənməsi istehsalın aşağı düşməsi, iş yerlərinin itirilməsi və enerji resurslarına olan tələbatın azalması ilə müşayiət edilir ki, bu halda da neftin ucuzlaşması qaçılmaz olur. Digər tərəfdən, Rusiyanın çökdürülməsi istiqamətində Qərbin tətbiq etdiyi sanksiyalar neftin 40-50 dollara qədər ucuzlaşma ehtimalını artırırdı. Həmin dönəmdə hökumət neftin baza qiymətini 80 dollardan 100 dollara qaldırdı. Dövlət büdcəsində neft sektorunun payının 75 faiz olmasını nəzərə alsaq, neftin ucuzlaşmasının ölkə iqtisadiyyatına birbaşa təsir edəcəyini təxmin etmək olardı. Belə də oldu və büdcə böhranı, büdcə gəlirlərinin kəskin azalması büdcə kəsirinin kəskin artımına gətirib çıxardı. Valyuta ehtiyatları hesabına bu kəsiri ört-basdır etmək də mümkün olmadı. Üstəlik, Azərbaycanda neft hasilatı azalmağa doğru gedir. İstənilən halda neftin ucuzlaşması və qlobal böhranın sərhədlərinin genişlənməsi Azərbaycan iqtisadiyyatı üçün yaxşı perspektiv vəd etmir. Ancaq hökumət hələ ki bunun fərqində deyil - neft pullarını qısa müddət ərzində hesabdan silməyə çalışır. Neft ucuzlaşmaqda davam edəcəksə, hökumət nəinki büdcə böhranı, hətta sosial-iqtisadi böhranla da üzləşəcək. Çünki nefti çıxanda Azərbaycan iqtisadiyyatında heç nə qalmır - büdcə gəlirlərinin 75, ixracın isə 93 faizi neftin payına düşür. Vəziyyətin təhlili onu deməyə əsas verir ki, yaxın zamanda ölkə iqtisadiyyatında manatın möhkəmlənməsinə təsiri edəcək ciddi bir irəliləyiş olmayacaq. Bu isə öz vətəndaşının etimadını tam itirmiş hakimiyyətin siyasi iflasını da sürətləndirə bilər. Bunu artıq məmurlar da anlayırlar və 6 milyard manatın kredit adı ilə mənimsənilməsi batmaqda olan gəmini tərk etməyə hazırlaşan komandanın təşvişinə bənzəyir. Hətta kənar baxışla görünən budur ki, ölkə iqtisadiyyatı 25 illik keçid dövründən sonra da bazar iqtisadiyyatı qanunları ilə deyil, inzibatı üsullarla idarə edilir. Proqnozlar bədbindir. Artıq özü-özünü tənzimləmək imkanına malik olan liberal iqtisadiyyatdan da söhbət gedə bilməz.

Bir tərəfdən ölkədə iflasın labüd olduğu görünür, digər tərəfdənsə alternativ siyasi güclərin zəifliyi prosesi alternativ meydana çıxanadək uzatmağa vadar edir.

Siyasi sistemin əsas tərkib hissələri olan vətəndaş cəmiyyəti və siyasi müxalifət də böhran durumundadır və bu böhrandan çıxış yolları axtarmaq niyyəti görünmür. Bu isə iqtidarın içində alternativ axtarışı perspektivini daha da aktuallaşdırır. Göründüyü kimi, Azərbaycanda siyasi güc mərkəzlərinin taleyini beynəlxalq amillər müəyyən etməkdədirlər. Bir sözlə, mövcud durumda ölkənin siyasi müqəddəratının müəyyənləşməsində xarici faktorun rolunun artması qaçılmaz görünür. Lakin hazırkı mərhələdə xarici faktorun açıq müdaxiləsi mümkün olmadığından, bunun iqtisadi və digər qeyri-siyasi amillər vasitəsilə həyata keçiriləcəyi gözlənilə bilər. Dərinləşməkdə olan iqtisadi böhran isə rəsmi Bakını beynəlxalq kreditlərdən asılı edir...

YENİ MÜSAVAT
N 226 (6254) 13 oktyabr 2015

# İqbal Ağazadə Araz Əlizadəyə sərt cavab verdi

## İki namizəd arasındakı rəqabət kəskinləşir; İqbal Ağazadə: "Kimsə məni hədəf seçibsə..."



**Parlament seçkiləri yaxınlaşdıqca bütün dairələr üzrə deputatlığa namizədlər arasında rəqabət kəskinləşir. Elə dairələr var ki, artıq yaşanan rəqabət şəxsi düşmənçilik səviyyəsində aparılır. 35 saylı Xətai seçki dairəsində də vəziyyət kritikdir.**

Həmin dairədə əsas rəqiblər 2013-cü ildə prezidentliyə namizəd olmuş şəxslər, hazırkı millət vəkili, Ümid Partiyasının sədri İqbal Ağazadə və Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadədir. Hər iki namizəd sözün həqiqi mənasında mətbuatda söz savaşı aparırlar. Xüsusilə bu prosesdə A.Əlizadə daha fəal görünür. Ümid sədri ona cavab vermək istəməsə də, ittihamları qarşısında bəzən susqunluğu pozmağa məcbur olur. Namizəd olacağını elan etdiyi ilk gündən ASDP sədri İ.Ağazadəni əsas hədəf seçib. Mətbuatda onun ünvanına ağır ittihamlar səsləndirir. Hətta iş o yerə çatıb ki, A.Əlizadə Ümid sədrinin namizədliyinin ləğv olunması üçün dairə seçki komissiyasına (DSK) müraciət edib. O, millət vəkilini təbliğat-təşviqat kampaniyası başlamamış, seçiciləri ələ almaq üçün asfalt və yelləncəklər düzəltməkdə ittiham edib. Lakin DSK onun iddiasını təmin etməyib. ASDP sədri MSK və məhkəməyə müraciət edəcək. O, İ.Ağazadənin qardaşı İlqar Ağazadə barədə də ittiham irəli sürüb. A.Əlizadə sensasion iddia irəli sürərək, İlqar Ağazadənin oktyabrın 7-də nümayəndəsi Günel Babayevanın evinə adam göndərərək, onu hədələdiyini, evdən aparmaq istədiklərini bildirib. Göründüyü kimi, kifayət qədər ciddi ittihamdır.

**Bütün bunlarla bağlı İqbal Ağazadənin fikirlərini aldıq. O, əslində A.Əlizadə adlı bir şəxs barəsində danışmaq istəmədiyini söylədi:** "Onun barəsində danışmağa vaxt sərf etmək istəmirəm. Biz hər seçicimizin qapısını döyürük, bizə səs vermәsini istəyirik. Hər şeyi qanun çərçivəsində edirik. Heç kim bilə bilməz ki, o ünvanda kim yaşayır. Günel Babayeva məsələsi barədə deyirəm ki, boş-boş işlərlə məşğul olmasın, daha ciddi işlərlə məşğul olsun. Şər-böhtanlara cavab vermək istəmirəm. Mənasız-mənasız danışmaqdansa, getsin seçici ilə işləsin. Başa düşmürəm, millət vəkilliyinə namizədəm deyə, qardaşım seçki qərargahımda olmamalıdır? Kiminsə qardaşı ilə münasibətinin necə olduğunu deyə bilmərəm. Xahiş edirəm, heç kəs heç kəsi şərləməsin. Təbliğatımızı normal çərçivədə aparaq. İndiyə qədər Araz Əlizadənin ünvanına nə bir söz demişəm, nə də əks-təbliğat aparmışam. Yaşımıza, başımıza hörmət etməyi bacarmalıyıq. Bir namizəd indiyə qədər mənim etik qaydaları pozduğumu deyə bilməz. Hamıdan da xahiş edirəm ki, etik normaları pozmasınlar. Ayıbdır".

**Millət vəkili namizədliyinin ləğv edilməsi barədə A.Əlizadənin DSK-ya ünvanlandığı şikayətə də toxundu:** "DSK bu məsələni araşdırıb, artıq qərarını verib. Bitmiş bir məsələdir. Bütün namizədlərə, sadəcə, Seçki Məcəlləsi xatırladılıb. Bu da DSK-nın haqqıdır. Namizədliyim nə üçün ləğv olunmalıdır? Hansı qanunu pozuram ki?"

**İ.Ağazadə ASDP sədrinin bundan sonra səsləndirəcəyi ittihamları susqunla qarşılayacağını da qeyd etdi:** "Susacam. Bütün dönəmlərdə Araz Əlizadənin nə danışmağından asılı olmayaraq, susqunluq nümayiş etdirəcəm. Bütün fikirlərə hörmətlə yanaşıram. Hər kəsdən də eyni cür münasibət gözləyirəm. Heç kimə qarşı qara piar kampaniyası aparmaq fikrində deyiləm. Sadəcə, seçici ilə işləyirəm. Kimsə məni hədəf seçibsə, hansısa məqsədləri varsa, Allah fikirlərindən xeyir versin. Bunlar məni narahat edən məsələlər deyil".

❑ Cavanşir ABBASLI



# "Virtual səsvermədə" Pənah Hüseynə qarşı saxtakarlıq...

## Saytlardan birinin keçirdiyi səsvermə ilə bağlı müxtəlif iddialar

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynə qarşı saxtakarlıq həyata keçirilib. Belə ki, srağagün Pənah Hüseynin seçki qərargahı facebook şəbəkəsində açıqlama yayaraq bildirmişdi ki, xəbərlər.az saytında 01 noyabr 2015- ci il tarixdə Milli Məclisə keçiriləcək seçkilərdə qeydə alınan namizədlər arasında virtual səsvermənin keçirilməsində saxtakarlıq var. Həmin açıqlamada qeyd edilirdi ki , bu barədə materialları KİV- lərə təqdim edəcəklər.**

unula bağlı dünən Pənah Hüseynin səlahiyyətli nümayəndəsi Qiyas Sadıqova müraciət etdik. Q. Sadıqov aşağıdakıları söylədi. "Dünən günün ikinci yarısından sonra qərargaha zənglər gəlməyə başladı ki, saytda Pənah Hüseynə verilən səslər qeydə alınmır. Daha doğrusu, konkret İP-dən səsin qəbul edildiyi bildirilir və həmin İP təkrar səsverməni bir daha qəbul etmir. Daha sonra məlumatlar gəlməyə başladı ki, Pənah Hüseynin saytda göstəriciləri hətta göründükdən sonra da azaldılır. Biz xəbərlər.az- ın saytında verilmiş telefonlarla əlaqə saxlamağa çalışdıq. Lakin məlum oldu ki, həmin telefonlara heç kim cavab vermir. Bundan sonra qərargah üzvlərinə müraciət etdik ki, göstəriciləri skreen-shot etsinlər. Həmin skreen shotlardan görünür ki, saat 20.48-də guya Pənah Hüseynə 81, YAP-ın namizədi Elçin Quliyevə 81 səs verilib. Ondan 3 dəqiqə sonra saat 20.51-də isə görünür ki, Pənah Hüseynin qarşısında 79 səs yazılıb və s. Aydındır ki, zəmanə xarab olub və adamları elə günə salıblar ki, onları reputasiya yox, gündəlik maddi qazanc maraqlandırır və bunun üçün hər cür saxtakarlığa, vicdansızlığa gedirlər. Məlum olandan sonra ki, "virtual sorğu" əziyyət çəkib ora zəng göndərənlərdən yox, admindən asılıdır, hansı axmaq buna gedər".

**Q.Sadıqov onu da dedi ki, sözügedən saytın göstərilən ünvanına gedib izahat almağa çalışacaq. Əgər əmin olsa ki, qəsdli və ya korrupsiya ehtimallı saxtakarlıq, dələduzluq halı var və hazırda da bunu güman etməyə əsaslar yox deyil, MSK-ya, ola da bilər məhkəməyə və ya prokurorluğa müraciət edələcək:** "Doğrusu, bu məsələyə elə də diqqət verməzdik. Ancaq həmin saytın idarəçiləri və müəllifləri arasında bizim üçün maraqlı görünən adlar var ki, məhz bu cəhət göstərilən saxtakarlığın xırda dələduzluq və ya korrupsiya ola bilməsindən daha ciddi fikirlərə vadar edir."

**Məsələ ilə əlaqədar xeberler.az saytının təsisçisi və baş redaktoru Osman Gündüzlə əlaqə saxladıq. Osman Gündüz bildirdi ki, sistem normal işləyir və hələlik hər hansı kənar müdaxilə qeydə alınmayıb:** "Amma eyni anda səs verənlərin səslərinin sistemdə qeydə alınması və yəni səs verənlərin "İp" ünvanı ilə bağlı texniki ləngimələr-filan olur. Bu da sonrakı cəhdlərdə aradan qaldırılır. Səslərin hesablanmasında indiyədək hər hansı qüsur olmayıb. Ancaq və ancaq bir qədər gec görsənməsi olur".

❑ Etibar SEYİDAĞA

# Partiyaların seçki şüarları - cəmiyyətə kim hansı mesajı verir?

## Bəzi partiyaların şüarları hələ hazır deyil, bəziləri isə ümumi şüarlardan qaçır...

**Hakim Yeni Azərbaycan Partiyası (YAP) seçki şüarını bir neçə gün əvvəl açıqlayıb. Partiyanın Milli Məclisə keçiriləcək seçkilərdəki şüarı "Yeni Hədəflərə Doğru" olacaq. Seçkiyə qatılan digər partiyaların və blokların da seçki şüarını öyrənmək üçün musavat.com-un əməkdaşı bir neçə partiya və blokla əlaqə saxlayıb.**




**Müsavat başqanının müavini Elman Fəttah** bildirib ki, müzakirə olunan şüarlar çoxdur, ancaq hələ təbliğat materialları çapdan çıxmayıb: "Şüarlardan biri "Azad insan, azad dövlət!" şüarıdır. Bundan başqa, "Azərbaycan uğrunda!" şüarımız var. Dəqiqləşmə aparırıq, bir-iki günə plakatlar çap ediləcək".

**AXP-nin sədr müavini Qiyas Sadıqov** isə qeyd edib ki, onlar "Azadlıq-2015" seçki blokunun şüarlarını gözləyirlər: "Hələ müzakirə aparılır".

**Ümid Partiyasının sədr müavini Taleh Əliyev** deyib ki, onlar olduqca ciddi şüarla seçkiyə gedirlər: "Çox qısa, lakonik, mənalı şüardır: "Sizinləyəm". İstər seçki günü olsun, istər növbəti beş ildə seçicimizin yanında olacağıq, xalqımızın yanında olacağıq. Biz bu şüarla, 17 namizədlə prosesi davam etdiririk".

**KXCP-nin sədr müavini Xəzər Teyyublu da bildirir ki, onlar ayrıca seçki şüarı hazırlamayıblar:** ""Azadlıq-2015" seçki blokunun vahid şüarı olmalıdır. Biz də həmin şüardan istifadə edəcəyik".

**AMİP Siyasi Şurasının üzvü Əli Orucov deyib ki, şüarlar hələ hazır deyil:** "Daha çox üç şüar üzərində dayanmışıq. "İstiqlaldan iqtidara" şüarı keçən seçkidə də şüarımız olub. "Xilas olun!" variantı da təsdiq olunub. "Sənindir bu vətən, bu dövlət" kimi şüarımız da var. Dəqiqləşmə aparacağıq. Ola bilsin, namizədlər öz seçki şüarları ilə də seçkiyə getsinlər. Azərbaycanda seçkilər bir qədər fərqli keçirildiyindən, hər hansı şüarın uğurlu seçilməsi o qədər də rol oynamır. Amma çalışırıq ki, seçicilərin diqqətini cəlb edəcək isməriş, şüar, mesaj üzərində dayanaq".

**VHP təmsilçisi Samir Əsədli isə deyib ki, onlar vahid şüar olaraq "Nicatımız vətəndaş həmrəyliyindədir!" fikrini seçiblər:** "Bizim 16 namizədimiz seçkilərə qatılıb. Vahid şüar olaraq "Nicatımız vətəndaş həmrəyliyindədir!",- mesajını seçmişik. Amma elə namizədlərimiz var ki, 2-3 fərqli formada plakat çıxarıblar, özlərinin fərdi şüarları da var".

**"AĞ blok"un təsisçilərindən Tural Abbaslı qeyd edib ki, onların şüarları "Ləkəsizlik, təmizlik, şəffaflıq"dır:** "Bizim 8 namizəddən dördü qeydə alınıb, ikisi regiondan, ikisi Bakıdan. Hər dairənin özünəməxsus problemləri var. O problemlərə yönəlik şüarlarımız da var".

**REAL Hərəkatının icra katibi Natiq Cəfərli bildirib ki, hər namizədin ayrıca şüarı var:** "Belə qərara gəldik ki, hər namizədin ayrıca şüarı olsun. Amma ümumi loqosu və REAL-ın namizədliyinin vurğulanması şərti ilə. Məsələn, Sumqayıtdan üç namizədimiz "Səs ver, səsiniz eşidilsin",- şüarı ilə seçkiyə gedir.

Müxtəlif dairələrdə yaşayan insanların problemlərinə uyğun şüarlar hazırlamışıq. Məsələn, Azər Qasımlı "İnanın, dəyişikliklər olacaq" sloqanı ilə seçkidə iştirak edir. Rəsmi rəqəmlərə görə, onun dairəsində ən aşağı iştirakçılıq var. Mən "Neft qurtardı, biz varıq!" mesajı ilə gedirəm, bu şüarla kampaniyamı quracam".

❑ Röya RƏFİYEVA

# 1 noyabr 2015-ci ildə keçiriləcək parlament seçkilərində Ümid Partiyasının namizədlərinə səs verin!




*1 noyabr 2015-ci ildə keçiriləcək parlament seçkilərində 25 saylı Nizami ikinci seçki dairəsindən deputatlığa namizəd Abbasov Elman Abdulla oğlu.*

**1970-ci ilin may ayının 20-də Naxçıvan MR Şahbuz rayonunda anadan olub.**

**1988-1990-cı illərdə hərbi xidmətdə olub**

**Azərbaycan Pedaqoji Universitetinin tarix fakültəsini bitirib**

**Azərbaycan Milli Azadlıq hərəkatında yaxından iştirak edib.**

**1990-1995-ci illər AXC-nin, 1995-2005-ci illərdə AXCP-nin üzvü olub. AXCP Şahbuz rayon təşkilatında Ümumi şöbənin müdiri, 2000-2005-ci illərdə müxtəlif vaxtlarda Naxçıvan Şəhər Şöbəsində sədrin Təşkilatı məsələlər üzrə və MR Təşkilatında sədrin siyasi məsələlər üzrə müavini kimi siyasi fəaliyyət göstərib.**

**2004-cü ildən jurnalist, eyni zamanda hüquq müdafiəçisi kimi fəaliyyətə başlayıb.**

**2004-2005-ci illərdə müxtəlif vaxtlarda Naxçıvanda çıxan müstəqil "Bizim Naxçıvan" qəzetində müxbir, ANS TV-in şəhərlər qrupunun Naxçıvan bürosunun rəhbəri, APA informasiya agentliyinin Naxçıvan bölgə müxbiri işləyib.**

**2 005-2007-ci illərdə "Bizim yol" , 2012-2013-cü illərdə "Azadlıq" qəzetləri ilə əməkdaşlıq edib.**

**2006-2010-cu illərdə Naxçıvan Demokratiya və QHT-lərin İnkişaf Resurs mərkəzi ilə əməkdaşlıq edib.**

**2008-2012-ci illər Reportyorların Azadlığı və Təhlükəsizlik İnstitutunun (RATİ) Naxçıvan üzrə bölgə müxbiri işləyib. İnsan haqları ilə bağlı müxtəlif beynəlxalq seminar və konfransların iştirakçısıdır. Jurnalistika, vebjurnalistika və hüquq müdafiə sahəsi üzrə beynəlxalq sertifikatlara sahibdir.**

**2005-2010-cu illərdə 4 saylı Naxçıvan Şəhər seçki dairəsində Ümid Partiyasını təmsil edib.**

**2013-cü ilin may ayında Ümid Partiyasının Mətbuat Xidmətinin rəhbəri, 2014-cü ilin iyununda Ümid Partiyası sədrinin İnformasiya və Mətbuat üzrə müavini təyin edilib. Hazırda Ümid Partiyası sədrinin informasiya və mətbuat üzrə müavinidir .**

**Müxtəlif mətbuat orqanlarında çap olunan çoxlu sayda məqalələrin və araşdırmaların müəllifidir.**

**Evlidir, 1 övladı var.**

## Sizinləyəm...

*Sizlərə səslənib deyirik, kimsəni düşmən elan etməyən, heç bir Azərbaycanlını keçmişinə, siyasi mənsubiyyətinə, dini baxışlarına, milli tərkibinə görə çeşidlərə bölməyən düşüncə sahibləriyik.*

*Biz bir Ümid qapısıyıq. Dəyişin ki, o Ümid qapısı Azərbaycanımızın üzünə açılsın. Açdığınız qapıda hər birinizi səadət və güvən, sevgi və məhəbbət, firavanlıq və xoşbəxtlik gözləyir!*




*1 noyabr 2015-ci il parlament seçkilərində 69 saylı Cəlilabad-Masallı-Beləsuvar seçki dairəsindən deputatlığa namizəd Əliyev Bəybala Əşrəf oğlu.*

**1964-cü ildə Cəlilabad rayon Fətullaqışlaq kəndində anadan oluib.**

**1982-ci ildə Cəlilabad Rayon Göytəpə şəhər 2 saylı orta məktəbi bitirib.**

**1982-1984-cü illərdə hərbi xidmətdə olub.**

**1985-ci ilin sentyabr ayına qədər Cəlilabad Rayon Kolxozlararası Tikinti idarəsində əmək fəaliyyətinə başlayıb.**

**1985-ci ildə Xətai rayon H.Z. Tağıyev adına Toxucu-Tikiş İstehsalat Birliyində əmək fəaliyyətini davam etdirib.**

**Ali təhsillidir. 1992-ci ildə M.B. Frunze adına İvanov Yüngül Sənaye İnstitutunun Kimyaçı-Texnoloq fakültəsini bitirib.**

**1990-1995-ci illərdə Xətai Rayon Sovetinin deputatı olub.**

**1991-1997-ci illərdə müxtəlif vaxtlarda H.Z. Tağıyev adına Kombinatda sex rəisi və növbə rəisi vəzifələrində işləyib.**

**1997-ci ildə H.Z. Tağıyev adına Toxucu-Tikiş İstehsalat Birliyinin Həmkarlar ittifaqı Komitəsinin sədri seçilib.**

**2006-cı ildən Ümid Partiyası Xətai rayon təşkilatının sədridir.**

**2007-ci ildə Ümid Partiyası sədrinin köməkçisi , 2009-cu ildən etibarən Azərbaycan Milli Məclisinin Aparatı, deputat köməkçisi vəzifəsində işləyir.**

**Ailəlidir, üç övladı var.**

**69 saylı Cəlilabad-Masallı-Biləsuvar Seçki Dairəsindən deputatlığa namizəd Bəybala Əşrəf oğlu Əliyevin seçicilərə**

**M Ü R A C İ Ə T İ**

**Hörmətli həmvətənlərim!**

**Əziz seçicilərim!**

**Bölgəmizə xas olan yerli problemlərin həllini və o cümlədən Göytəpə şəhərinin abad və müasir şəhərə çevrilməsini, kanalizasyia və su xətti problemlərinin həllini, palçıq yollardan can qurtarmaq istəyirsinizsə,**

**1 noyabır 2015-ci il parlament seçkilərində mənə səs verin!**

**Mən hər zaman SİZİNLƏYƏM!!!**




*Namizədliyi 81 saylı Beyləqan seçki dairəsindən qeydə alınmış İsayev Anar Rafiq oğlu.*

**15 avqust 1976-cı ildə Füzuli rayonunun Merdinli kəndində anadan olub.**

**1983-cü ildə Füzuli rayonu Merdinli kənd natamam orta məktəbinin 1-ci sinfinə daxil olub 1991-ci ildə həmin məktəbin 8-ci sinfini bitirib.1991- ci ildə Füzuli rayon Humanitar və Dəqiq fənlər Gimnaziyasına daxil olub 1993-cü ildə gimnaziyanı bitirib.**

**1994-cü ildə Azərbaycan Dövlət İqtisad İnstitunun "Maliyyə və kredit" fakültəsinə daxil olub 1998-ci ildə həmin institu bitirərək "maliyyə və kredit" ixtisasını almışdır.**

**Əmək fəaliyyətinə 01 dekabr 1998-ci ildə AzNKZT tresti 4 № -li Təmir-Tikinti İdarəsində kimya və neft sənayesi müəssisələri avadanlıqları üzrə 3-cü dərəcəli montajçı kimi başlamışdır və 25 dekabr 1999-cu ilədək həmin sahədə çalışmışdır**

**27 dekabr 1999-cu ildən 01 aprel 2002-ci ilədək AzNKZT tresti İxtisaslaşdırılmış Mexanikləşdirmə İdarəsinin PİŞ şöbəsində iqtisadçı vəzifəsində, 02 aprel 2002-ci ildən 01 noyabr 2003-cü ilədək isə Rayonlararası Quraşdırma Tikinti İslehsalat Birliyinin 195 saylı Təmir- Tikinti İdarəsində baş mühasib vəzifəsində işləmişdir.**

**04 noyabr 2003-cü ildən hazırkı vaxta qədər "İnşaat-Quraşdırıcı Texnoloq" MMC-də baş mühasib vəzifəsində işləyir.**

**2002-ci ilin dekabrndan Ümid Partiyasının üzvüdür.**

**2009-cu ildən Ümid Partiyasının Ali Məclisinin katibi, 2013-cü ildən isə Ali Məclis Sədrinin I müavini seçilib. 2015-ci ilin Aprel ayından Azərbaycan Ümid Partiyası sədrinin Qaçqın və Köçkünlərlə iş üzrə müavini təyin edilib. 2009-cu ildən Ümid Partiyası Rəyasət Heyətinin üzvüdür.**

**IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 84 saylı Füzuli seçki dairəsindən Qarabağ Blokunun deputatlığa vahid namizədi olub.**

**Ailəlidir, iki övladı var.**



*1 noyabr 2015-ci ildə keçiriləcək 5-ci çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 19 saylı Nərimanov birinci seçki dairəsindən deputatlığa namizəd Ramin Hacılı*

**2 sentyabr 1983-cü ildə Azərbaycan Respublikası, Füzuli rayonu, Arayatılı kəndində doğulub. Orta təhsilini Bakı şəhəri, 220 saylı orta məktəbdə başa vurub. Azərbaycan Dövlət İqtisad Universitetinin Türk Dünyası İşlətmələr Fakültəsində Beynəlxalq Siyasi Münasibətlər ixtisası üzrə ali təhsil alıb (2002 - 2006).**

**2002-2004-cü illərdə Rəsulzadə-Elçibəy Ocağında sədr müavini olub.**

**Dalğa Gənclər Hərəkatının (Dalğa GH) həmtəsisçisi və ilk sədri olub (2005-2006).**

**Dalğa GH-nın təsis etdiyi "Demokratiya Məktəbi"nin direktoru (2007-2008), sonradan isə təlimçisi olub (2008-2012).**

**ABŞ-ın Demokratiyaya Yardım Fondunun (NED) maliyyə dəstəyi ilə fəaliyyət göstərən "Demokratiya Akademiyası"nın prezidenti vəzifəsini icra edib (2008-2010).**

**2006-cı il sentyabr - 2013-cü il sentyabr dövrünü əhatə edən müddət ərzində Azərbaycan Demokratik İslahatlar Partiyası Gənclər Təşkilatının sədri və partiyanın Siyasi Şurasının üzvü olub.**

**Azərbaycan Avropa Hərəkatının Vitse-Prezidenti və Baş Katibi olub (2011 iyun, 2012 fevral). 2012-ci ilin 17 fevral tarixindən etibarən Beynəlxalq Avropa Hərəkatının Azərbaycan nümayəndəliyi olan, Azərbaycan Dövləti tərəfindən rəsmi qeydiyyata alınan Azərbaycan Avropa Hərəkatının prezidentidir.**

**2006-cı ilin sentyabr ayının 17-dən 2010-cu ilin dekabr ayınadək nəşr olunan "Alma" Gənclər üçün İctimai - Siyasi Qəzetin ideya müəllifidir.**

**Dövrü mətbuatda ictimai-siyasi mövzularda analitik yazılarla çıxış edir.**

**2008-ci ildə Ukraynanın paytaxtı Kiyev şəhərində keçirilən "Dünya Demokratiya Hərəkatı"nın Qurultayında Azərbaycan gənclərini təmsil edib.**

**2009-cu ildə Türkiyənin Bursa şəhərində keçirilən "Türkiyə, Azərbaycan və Ermənistan münasibətləri" adlı konfransa qatılıb və nüfuzlu media qurumlarında o cümlədən beynəlxalq telekanallarda Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı mövqe bildirib.**

**2010-cu ilin aprel-may aylarında Amerika Birləşmiş Ştatları (ABŞ) Dövlət Departamentinin "Beynəlxalq Qonaqlar üçün Liderlik" Proqramı çərçivəsində ABŞ-da səfərdə olub.**

**2010-cu ildə keçirilən Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Bakı şəhəri, Nizami rayonundan (24 saylı Nizami birinci seçki dairəsi üzrə) deputatlığa namizəd olub.**

**2011-ci ildən "Üçüncü GƏLƏCƏK" jurnalının təsisçisi və baş redaktorudur.**

**2012-ci ildə ATƏT-in maliyyə dəstəyi ilə həyata keçirilən "Gənclərin İctimai-Siyasi Fəallığının Artırılması üzrə Regional Təlimlər" layihəsinin koordinatoru olub.**

**2013-2014-cü illərdə ABŞ Təhsilli Azərbaycan Məzunları İctimai Birliyi (AAA) İdarə Heyətinin üzvü olub.**

**2012-ci ildən Bütöv Azərbaycan Ocaqlarının İdarə Heyətinin üzvüdür.**

**2013-cü ilin iyul, avqust aylarında Malta Respublikasında intensiv ingilis dili təhsili alıb.**

**2006-cı ildən etibarən sülh quruculuğu istiqamətində həyata keçirilən layihələrdə aktiv iştrakçı olub. 2013-cü ildə Beynəlxalq Avropa Hərəkatının təşəbbüsü ilə Ermənistanda keçirilən "Dağlıq Qarabağ münaqişəsinin həllində Vətəndaş Cəmiyyətinin rolu" mövzusunda müzakirələrdə Azərbaycan tərəfindən təmsilçi kimi qatılıb.**

**2014-cü ilin 14 fevral tarixində təsis olunan "125-lər" Siyasi Klubunun yaradıcılarındandır.**

**2014-cü ildə TEDx spikeri olub.**

**2014-cü ilin dekabr ayından Azərbaycan Diplomatiya Akademiyasının (ADA Universiteti) təlimçisi kimi fəaliyyətə başlayıb.**

**Avropanın siyasi inkişaf tarixi, siyasi sistemlər və idealogiyalar nəzəriyyəsi üzrə mütəxəssisdir.**

**2014-cü ilin iyun ayından Azərbaycan Ümid Partiyası sədrinin beynəlxalq əlaqələr və strateji məsələlər üzrə müavini vəzifəsində çalışır.**

**Evlidir.**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Ərə verilməyə namizəd

**Zamin HACI**
zaminhaci@gmail.com

"Biz üzümüzü bir hambala tutduq, amma haman dəqiqə bir hambal əvəzinə bir dəstə hambal bizi bürüdü. Bunlar hamısı İrəvan kürdləri idi. Biz istədik qabaqca şeyləri nişan verək və danışaq ki, aparsınlar, amma təqribən on beş-iyirmi hambal şeyləri görüb, daha qulaq asmadılar və başladılar haman şeyləri köməkləşib küçəyə daşımağa. Uzaqda duran hamballar da həmçinin buraya cəm oldular və başladılar bizim şeyləri hərə özünə yük eləməyə. Amma çünki hər hambala bir şey düşmürdü, onun üçün, məsələn, bir şkafın h?r ayağından v? qapısından bir hambal yapışmışdı"

***(Mirzə Cəlil, "Hamballar")***

**Yapistlərin Azərbaycanda seçki prosesini ləğv etməsi artıq yekun mərhələsinə girməkdədir. Budəfəki deputatxana seçkiləri hətta qabaqkı illərin bələdiyyə seçkilərindən də sönükdür. Seçki gününə 17 sutka qalıb, amma ölkədə, deyəsən, heç 17 adamın da seçki yadına düşmür. Dünən mən yaşadığım yerin yaxınlığında bir təşviqat lövhəsinin önündən keçərkən onun küncündə yetimcəsinə boynunu burub dayanan bircə plakat gördüm. Onu da yapistlər öz partiyalarının namizədi adıyla yapışdırmışdılar. Bu xanım namizəd əslində məzəli bir fiqurdur - yapistlər hər seçkidə (o cümlədən bələdiyyə seçkisində) divara onun plakatını vurur, deputatxanaya isə "bitərəf" adıyla ərazinin məşhur mafioz-zavmağını soxurlar. İşin gülməli tərəfi odur ki, zavmaq heç vaxt plakat vurmur. Bəs bu xanımın şəklini niyə vururlar? Mən plakata baxarkən yaxınlıqdan keçən bir zəhmətkeş bunun səbəbini çox orijinal şəkildə açıqladı: "YAP neçə seçkidir bu qızı ərə vermək istəyir, nəsə alınmır".**

Doğrudan da seçkilərə bəziləri ərə getmək, bəziləri isə pullu namizəddən nəsə qopardıb axırda "onun xeyrinə imtina eləmək" üçün qatılır. Nəticədə lövhələr boş qalır. Növbəti seçkidə yəqin lövhənin enini azaltmaq lazım gələcək - mənasız şəkildə çox yer tutur.

Hakimiyyətin pulsuz efir vaxtını ləğv eləməsi də bu seçkinin növbəti "yeniliyidir". Qabaqkı seçkilərdə yenə heç olmazsa namizədlər efirdə quş buraxırdılar, camaat bu quşları yolub soyutma bişirir, satirik səhnəciklərə baxıb gülürdü. Bunu uca millətə çox gördülər. Nə etməli, "çörək və tamaşa" neft pulları dövrünün proqramı idi, indiki kasıbçılıq şəraitində millətə yavan çörək də bəsdir. Tamaşa qurtarmışdır. Necə deyərlər, "finita lya komedia" - komediyanın sonudur.

Kasıbçılıq 92 saylı Zərdab-Ucar seçki dairəsində özünün yamaqlı, cırıq simasını lap pis göstərmişdir. Təsəvvür edin ki, orda iki adama pul verməyə imkan olmayıb, bir şəxsi eyni zamanda həm DSK üzvü qoyublar, həm də deputatxana üzvlüyünə namizədliyini irəli sürüblər. Qanuna zidd olan bu durumu sadə dillə belə anlada bilərik: adam özünün seçilməsini təşkil edəcəkdir. Məncə MSK sədri Məzahir müəllim də bu yeni şəraitdən yararlanıb namizədliyini verməliydi. Kimdən əskik kadrdır? Bəziləri neçə illərdir həm rektor, dövlət şirkəti şefi, həm də deputat olurlar. Kvartalda bir dəfə düymə basmağa getmək lazımdır - ayrı bir iş yoxdur onsuz. Hətta istəsən arıq-uruq deputatlardan özünə düymə basan katib(ə) də götürərsən, ümumiyyətlə, qanunqayırma sexinə baş çəkməzsən.

YAP-ın pullu efirdən imtinanı guya başqa partiyaların kvota yığa bilməməsi ilə izah etməsi də başqa lətifədir. Guya bunlar efirdən təkcə yararlanmaq istəməyiblər. Beyinlərinə təvazökarlıq sızıbdır. Elə bil 20 ildir telekanalizasiya efirlərində fikir plüralizmi fəvvarə vururmuş, millət hər gün canlı debatlar, müzakirələr, doğru xəbərlər izləyirmiş. Elə bil seçkiyə qalan günlərdə efir yapistlərin monoloqu ilə dolu olmayacaq.

İctimai Televiziya adlanan abort qurbanı qurumun deputatlığa namizədlər üçün elan elədiyi pullu efirin qiyməti isə Azərbaycan xalqını ələ salmaqdır: saniyəsi 50 manat! Guya bu cəmiyyətin kanalıdır, onun vergiləri ilə yaşayır, cəmiyyətin hər kəsiminin fikrini göstərməyə qanunla borcludur. Amma sən bu efirdə 1 dəqiqə danışmaq üçün 3 min manat ödəməlisən. Cəmil Quliyev "Alma almaya bənzər" filmindən bəri doymayıb deyəsən. Dünya birliyi bu ədalətsizliyə hələ də dözür.

Hər halda, ümid eləyək bu dəfə heç olmazsa bəzi namizədlər ərə gedə biləcəkdir. Onsuz seçkinin de-fakto ayrı bir xeyri qalmayıbdır.



# Vaşinqtonla Bakı arasında yeni gərginlik - Kreml pusquda...

## ABŞ-ın qadın senatorları Senata Azərbaycana dair sərt qətnamə layihəsi təqdim etdilər; eyni gündə Konqresin maliyyələşdirdiyi AzadlıqRadiosu ölkəmizdə qanunsuz elan olundu; bölgənin taleyi Azərbaycanda həll olunarkən münasibətlər kritik nöqtəyə doğru gedir...

**Bakı-Vaşinqton münasibətlərində sərin payız ruzigarları davam edir. ABŞ dövlət katibinin keçmiş köməkçisi və "Freedom House" nüfuzlu insan haqları təşkilatının sabiq rəhbəri, hazırda isə Makkeyn İnstitutunun insan haqları və demokratiya departamentinin direktoru olan Devid Kramerin rəsmi Bakıya ünvanlı son sərt mesajları barədə məlumat verilib. Bunun ardınca okeanın o tayından Azərbaycan iqtidarının qanını qaraldacaq daha bir xəbər gəlib.**

Bəlli olub ki, ABŞ-ın 20 qadın senatoru dünyada qadın siyasi məhbusların, o cümlədən Azərbaycanda Leyla Yunusun və Xədicə İsmayılovanın azadlığa buraxılmasına nail olunmasına çağıran qətnaməni Senatın Xarici İşlər Komitəsinə təqdim edib. Qətnamənin təşəbbüsçüsü xanım-senator Kelli Ayotdur ("Turan").

Sənəddə ABŞ-ın BMT-dəki səfiri Samanta Pauerin əsassız yerə həbs edilmiş və mühakimə olunmuş 20 qadın siyasi məhbusun azad edilməsi ilə bağlı çağırış və səyləri tam dəstəklənir. **"Bizim müraciətimiz sadədir - dünya liderləri və xarici hökumətlər qadınları dəstəkləməli, onları həbsxanalara atmamalıdır" - qətnamədə deyilir.**

Xatırladaq ki, Leyla Yunus və onun həyat yoldaşı Arif Yunus 2014-cü ilin avqustunda həbs olunub, 2015-ci ilin avqustunda 8,5 və 7 il müddətinə azadlıqdan məhrum ediliblər. Xədicə İsmayılova isə 2014-cü ilin dekabrında saxlanılıb və 2015-ci il sentyabrın 1-də 7,5 il müddətinə azadlıqdan məhrum edilib.

***

Göründüyü kimi, əgər Kramerin açıqlamalarını sırf qeyri-rəsmi şəxsin mövqeyi kimi təqdim edib üstündən keçmək olarsa - hərçənd, belə nüfuzlu və məlumatlı şəxslərin fikir və çağırışları hökumətdə heç də izsiz ötüşmür, - qadın konqresmenlərin hazırladığı sənəd artıq Vaşinqtondakı rəsmi ovqatın əlamətidir. Bu yerdə yada salaq ki, iki ay öncə digər bir qrup konqresmen Azərbaycanda insan haqları ilə bağlı ölkə prezidentinə sərt tənqid ruhunda məktub yollamışdı.

Diqqəti çəkən həm də son iki olayın zaman etibarilə faktiki, üst-üstə düşməsidir. Bu amil isə bir daha rəsmi Bakı ilə bağlı Kapitolidə neqativ mövqeyin güclənməsinə, Azərbaycan hakimiyyətinə qarşı hansısa yeni demokratiya həmləsinin hazırlanmasına dəlalət edir.

Baş verənlər həmçinin Azərbaycandakı 1 noyabr parlament seçkiləri ərəfəsinə təsadüf elədiyindən, bunu Bakıya qarşı seçkiöncəsi təzyiq kimi də dəyərləndirmək mümkündür. Bu təzyiqlər "seçkilərdək siyasi məhbuslar məsələsində müsbət irəliləyiş olmasa, onun nəticələri tanınmayacaq" tipli sərt anons mahiyyəti də daşıya bilərdi.

Bütün hallarda söhbət Bakı-Vaşinqton münasibətlərinin yeni və sərt sınaq qarşısında olmasından gedir. Belədirsə, situasiyanın hansısa formada və maksimum qısa zamanda yumşalma zərurəti yaranır. Çünki mövcud durum ən çox Rusiyanın, ən isə Azərbaycan və ABŞ-ın maraqlarına cavab verir.

***

Rusiya isə Suriya əməliyyatlarından da müşahidə edildiyi kimi, öz həyati maraqları olan bütün köhnə bölgələrə təzədən qayıtmaq, yaxud orada öz hərbi-siyasi varlığını tam bərqərar etmək kursu götürüb. Təbii, Azərbaycanın daxil olduğu Güney Qafqaz regionu da o sıradadır. Rəsmi Kremlin nüfuz dairəsinə düşmək isə istənilən ölkənin siyasi müstəqilliyi və suverenliyinin böyük ölçüdə itirilməsi deməkdir. İşğalçı Ermənistanın timsalında bunu aydın görmək olar.

Söz düşmüşkən, Ermənistanda da Azərbaycanın bütünlüklə Rusiyanın təsiri altına düşməsi nəticəsində ümumən bölgənin Qərb üçün itiriləcəyini anlayanlar var. Məsələn, tanınmış **erməni eksperti Stepan Safaryan** əmindir ki, Kremlin Avrasiya layihələri sırf öz maraqlarını möhkəmləndirmək və bölgənin inkişafa imkan verməmək üçün düşünülüb. Onun sözlərinə görə, İrəvan inteqrasiya proyektinə qoşulmaqla təhqiramiz bir situasiyaya düşüb (axar.az).

**Sitat:** *"Rusiya iki model yaradıb. Bunlardan birincisi Rusiyaya tabe olmayan Ukrayna modelidir. İkincisi isə Moskvaya tabe olan Ermənistan modelidir. O bizə deyir ki, özünüz hansı ölümü seçdiyinizi söyləməlisiniz. Ukrayna Krımı itirib Kiyevdə dayandı, amma biz İrəvanı da itirə bilərik. Rusiya Ermənistanı ələ keçirib və indi də çalışır ki, Azərbaycanı özünə tabe etdirsin. Əgər o, hər iki ölkəni ələ keçirsə, Gürcüstan müdafiəsiz qalacaq. Azərbaycanın məsələsi həll ediləndə biz Gürcüstan dramını da görəcəyik. Yeganə çıxış yolu Ermənistanın Azərbaycana qarşı Avrasiya İttifaqına üzv olmaq istəyəcəyi təqdirdə sərhədlərin dəqiqləşdirilməsi ilə bağlı veto tətbiq etməyidir".*

***

Ayrı sözlə, erməni politoloq təklif edir ki, ən əvvəl Ermənistanın öz olan-qalan müstəqilliyini itirməməsi və Azərbaycanın da onun gününə düşməməsi üçün İrəvan Bakının Avrasiya İttifaqına qoşulmasını bir bəhanə ilə əngəlləsin. Maraqlıdır, deyilmi?

Mövcud situasiyada Bakı-Vaşinqton münasiblərinin daha da gərginləşməsinin ilk öncə kimin, hansı qüvvənin əlinə işlədiyi yəqin ki, aydındır. Ən betəri odur ki, bu halda - Avrasiya layihələrinə qoşulmaq qarşılığında Moskvanın Bakıya ciddi güzəşt təklif eləməsinə ehtiyac qalmayacaq - o cümlədən Qarabağ məsələsində.

Deməli, vəziyyətdən tezlikdə çıxış yolu barədə hər iki tərəf (Bakı və Vaşinqton) ciddi düşünməlidir. Yəqin ki, "qızıl orta" - qarşılıqlı konstruktiv addımlar atmaq yeganə optimal variant olardı. Güman ki, okeanın o tayındakı "beyin mərkəzləri" də durumun həssaslığının və bölgənin taleyinin həqiqətən də Azərbaycanda həll olunduğunun fərqindədir.

***

Yazı hazırlanarkən məlumat yayıldı ki, Azərbaycan Xarici İşlər Nazirliyi AzadlıqRadiosu və "Meydan TV"nin ölkədəki fəaliyyətini qanunsuz elan edən açıqlama verib. Bu barədə nazirliyin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. "BBC Azərbaycan" xidmətinə gəldikdə isə o, deyib ki, "bu qurum və onların əməkdaşları mütəmadi olaraq akkreditasiyadan keçir".

Məsələ barədə danışan prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov öz növbəsində qeyd edib ki, "İnteraz", "Euroaz" televiziya kanalları, "Amerikanın səsi" radiosu, "Meydan TV", "Azadlıq. org" internet saytları və bir sıra digər xarici media orqanları, onların əməkdaşları dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, indiyədək müvafiq qaydalara əməl etmir və ölkə daxilində qeyri-qanuni fəaliyyət göstərirlər.

Xatırladaq ki, AzadlıqRadiosu bilavasitə ABŞ Konqresi tərəfindən maliyyələşdirilir.

Beləcə, Bakı-Vaşinqton münasibətlərində payız ruzigarları davam edir.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 226 (6254) 13 oktyabr 2015

# ABŞ-dan hakimiyyətə sanksiya xəbərdarlığına müxalifətdə fərqli münasibət

**ABŞ dövlət katibinin keçmiş köməkçisi, "Freedom House"un keçmiş rəhbəri, hazırda isə ABŞ Beynəlxalq Makkeyn İnstitutunun insan hüquqları və demokratiya üzrə direktoru Devid Kramer Azərbaycan hakimiyyətinə qarşı ABŞ-ın ciddi sanksiyalar tətbiq edəcəyini bəyan edib və eyni zamanda Vaşinqtonun sanksiyaları gecikdirməsini anlamadığını bildirib.**

"Turan" informasiya agentliyinə müsahibəsində Kramer bildirib ki, 2010-cu ilin əvvəllərindən etibarən rəsmi Bakının əvvəllər özünə dost hesab etdiyi ölkələrə qarşı mövqeyi kəskin şəkildə dəyişib. Həmin andan etibarən rəsmi dövlət təbliğatı Qərbə qarşı mənfi və Rusiyaya qarşı müsbət münasibət formalaşdırmağa başlayıb. Kramer qeyd edib ki, Bakıda hökumət Ukraynadakı hadisələri görüb və qorxub. Buna görə öz ölkəsində bu ssenariyə yol verməmək üçün repressiyalar həyata keçirməyə hazırdır: "Görünür, hakimiyyət hesab edir ki, bu cür siyasət yolveriləndir - vətəndaş cəmiyyətini dağıtmaq, jurnalistləri və fəalları həbs etmək olar və buna görə heç nə olmayacaq".

**Kramer onu da deyib ki, Azərbaycanın hələ də ABŞ-a, Avropaya ehtiyacı var:** "Əlbəttə, Bakı Moskva ilə münasibətlərini davam etdirir, amma Azərbaycanın daxilində vəziyyətin pisləşməsi davam edir və gec-tez Qərb cəzalandırmağa başlayacaq. Buna görə mən repressiyalara son qoyulması üçün məqsədyönlü sanksiyalar tətbiq edilməsinə üstünlük verirəm".

**Kramer Azərbaycanla Belarus arasında müqayisə də aparıb. Bildirib ki, Azərbaycanda vəziyyət siyasi məhbusların azad edildiyi Belarusdan daha pisdir:** "Belə olan halda çox şey Qərbdən asılıdır. Qərb möhkəm mövqe tutarsa və "bəsdir" deyərsə, Azərbaycanda baş verənlərə qarşı mübarizə siyasəti işləyib hazırlamalıdır, amma hələlik mən bunu görmürəm".

**Bununla yanaşı, Kramer qeyd edib ki, Konqresdə tənqidi əhval-ruhiyyədə və Azərbaycanda baş verənlərdən daha çox narahat olanların sayı getdikcə artır:** "Son bir neçə ayda Konqresdən prezident Əliyevə, Obama administrasiyasına ciddi narahatlıq ifadə edən məktubların sayı bunun sübutudur. Bu, Rusiya üzrə "Maqnitski qanunu"nun qəbul edildiyi 2010-cu ili xatırladır. Məhz Belarusa qarşı sanksiyalar tətbiq edildikdən sonra siyasi məhbusların azad edilməsinə nail olmaq mümkün olub".

**Rəsmi Bakının sanksiyalardan qorxmadığı və heç kimin hökumətə təzyiq göstərə bilməyəcəyi haqqında bəyanatlarını şərh edən Kramer deyib:** "Mənim və başqalarının təklif etdiyi sanksiyalar məqsədyönlü və mərhələli olacaq və hakimlərə, prokurorlara, siyasi məhbusların təqibində iştirak edən digər şəxslərə qarşı yönələcək. Zərurət olarsa, sanksiyalar hökumətdə yüksək səviyyəyə də şamil ediləcək və gücləndiriləcək. Zənnimcə, Azərbaycanda kimlərsə narahat olacaq".

Politoloqlar Devid Kramerin sanksiya xəbərdarlığının gerçəkləşəcəyinə inanmırlar. Hesab edilir ki, bu, Kramerin şəxsi arzusudur, dilə gətirir.

Bəs Kramerin sanksiya xəbərdarlığına müxalifətin münasibəti necədir? Müxalifət bu xəbərdarlığı ciddi hesab edirmi?



**Arif Hacılı:** "Kramer ABŞ-ın xarici siyasət sahəsində müzakirə olunan məsələlərdən xəbərdardır"



**Sərdar Cəlaloğlu:** "Azərbaycanda indiki vəziyyətin yaranmasında Amerikanın da günahı var"

**Müsavat Partiyasının başqanı Arif Hacılı** bildirdi ki, Devid Kramer ABŞ-ın xarici siyasətinin formalaşmasında iştirak edən adamlardan biridir. Ən azı bu ölkənin xarici siyasət sahəsində müzakirə olunan məsələlərdən xəbərdardır. Ona görə də onun fikirlərinə ciddi yanaşmaq lazımdır.

**ADP sədri Sərdar Cəlaloğlu isə ABŞ-ın Azərbaycan hakimiyyətinə sanksiyalar tətbiq edəcəyi barədə xəbərdarlığa Vaşinqtonu tənqid etməklə münasibət bildirdi:** "Azərbaycanda indiki vəziyyətin yaranmasında ABŞ-ın da günahı var. Azərbaycan hakimiyyəti bu rejimi yalnız öz gücünə yaratmadı. Qərbin Azərbaycandakı siyasi prosesləri özünün geopolitik və iqtisadi maraqlarına uyğun inkişaf etdirməsi istiqamətində apardığı siyasətdən iqtidar bəhrələndi və indiki vəziyyət yarandı. Dünya təcrübəsi göstərir ki, sanksiyalar rejimlərin güclənməsinə və bu cür rejimlərin əleyhinə olan qüvvələrin zəifləməsinə gətirib çıxarır. Ona görə də sanksiyalar bir o qədər də ağrılı addımlar deyil. Əksinə, hər hansı bir bölgədə ABŞ demokratiyaya dəstək vermək istəyirsə, gərək ilk növbədə demokratik institutların inkişafında maraqlı olalar. Biz neçə illərdir beynəlxalq təşkilatlardan xahiş edirik ki, Azərbaycanda tamamilə müstəqil bir telekanal yaradılsın və biz də sözümüzü orada deyə bilək. Azərbaycan müxalifətinin xalqla ünsiyyət yarada biləcəyi bir telekanal yoxdur. Son 10 ildə Qərb müxalifətlə əlaqələri demək olar ki, kəsib, yalnız hərdən formal görüşlər olur. Hakimiyyətə sanksiya tətbiq edincə, ölkədəki demokratik qüvvələrlə ciddi əməkdaşlıq etsələr, bu, daha səmərəli olar".

**S.Cəlaloğlunun fikrincə, ola bilsin ki, həqiqətən Devid Kramer ABŞ hakimiyyətinin Azərbaycan hakimiyyətinə sanksiyalar hazırladığından məlumatlı olduğu üçün belə bir bəyanatla çıxış edib və hansısa mərhələdə bu sanksiyalar veriləcək. Ancaq sanksiyalar olsa, Azərbaycanda vəziyyət daha da pisləşəcək:** "Sanksiya ilə hansısa məmurların Qərbdəki vəsaitlərinə həbs qoyulacaq, həmin məmur burada daha çox rüşvət alacaq. Hansısa məmurlara Qərbə getmək yasağı olacaq, həmin məmurlar Rusiyaya daha da sıx gedib-gələcəklər. İrana embarqo qoyulmamışdan öncə İran adi bir kənd təsərrüfatı ölkəsi idi. ABŞ İrana embarqo qoyduqdan sonra İran nüvə ölkəsi oldu. Sanksiyalar belə müsbət nəticə verirsə, nə üçün İran sürətlə inkişaf elədi? Rusiyaya sanksiya tətbiq etdilər, Rusiya Ukraynadan sonra Suriyaya da hücum elədi. Sanksiyalar ola bilsin ki, kimlərəsə məhdudiyyətlər gətirə bilər, ancaq ölkədə demokratiyanın qurulmasına gətirib çıxara bilməz. Demokratiyanın qurulmasını istəyən demokratik tərəflərin inkişafında maraqlı olmalıdır, siyasi partiyaların inkişafı üçün addımlar atmalıdır".

❑ **E.SEYİDAĞA**

# M.F.Axundov məğlubiyyətini duymurdumu?



**Hüseynbala SƏLİMOV**

**Bəli, elə bir duruma gəlib çatmışıq ki, hətta kiçik bir tənqidi fikir belə bizə yeni nəfəs kimi görünür, çünki belə yazılarda bir anlamaq cəhdi olur ki, o da düşüncə və yazı adamları üçün olduqca qiymətlidir...**

Bugünlərdə saytlardan birində maarifçiliklə bağlı çox maraqlı yazı oxudum. Həmin yazıda səslənən fikirlərin demək olar ki, hamısı ilə razıyam, amma gəl, razı olmadığım məqamlar da var...

Bəlkə də bir azacıq uzaqdan başlamaq daha düzgün olardı. "Qu quşunun yuvası üzərindən uçarkən" filmini xatırlayırısınızmı? Orada filmin qəhrəmanı deyir ki, mən heç olmasa, buna cəhd etdim...

İndi maarifçilik də elə məhz həmin "cəhd etdim" məsələsi kimidir, bir təsəllidir. Məgər bizim maarifçilər, tutaq ki, elə M.F.Axundov özünün məğlub olduğunu dərk etmirdimi? Məgər Axundovun özü demirdimi ki, nəsihətlə dünya düzəlsəydi, onda gərək iranlılar dünya millətləri içində ən öndə gedən və ən əməli-saleh millət olaydılar, çünki min ildir ki, cəmi İran əhli Şeyx Sədini oxumaqla - nəsihət oxumaqla məşğuldur...

Dedim ki, maarifçilik indi bizdə daha çox təsəllidir. Ən maraqlısı isə odur ki, digər üslublar, digər yazı tərzləri də bir nəticə vermir, deyilənlər, yazılanlar və göstərilənlər sanki quyunun dibinə gedir! Yada salın, bir vaxt deyirdilər ki, əgər müxalifətin televiziya imkanları olsa, çox şey dəyişəcək. Amma məhdud bir şəkildə olsa da, müxalifətin tele-efir imkanı, kobud şəkildə desək, televiziya ilə söymək imkanı yarandı. Amma bir şey dəyişmədi. Elə bu səbəbə görə yazıdakı bir fikirlə razıyam ki, siyasi sistem, bəli, tək hakimiyyət yox, elə siyasi sistemin özü dəyişməlidir...

Bu vaxta qədər Azərbaycanda da dəyişikliklər olub, amma bunlar yalnız hakimiyyət dəyişikliyi olub. Bizim, xüsusən də mənim çox öydüyüm 92-93-cü illərin hakimiyyəti də sübut edə bilmədi, insanları inandıra bilmədi ki, baş vermiş bir illik siyasi dəyişiklik təkcə hakimiyyət dəyişikliyi deyil, siyasi sistem dəyişikliyidir. Bəli, onlar da bunu edə bilmədilər, bəlkə də istəmədilər. Kim bilir, bəlkə də kreslo elə onlara da çox əziz göründü...

Ona görə də bir daha sual yaranır: niyə bütün səylər az qala bir dibsiz quyuya çevrilmiş bu ölkədə heç bir nəticə vermir? Niyə cəmiyyətlə əks-rabitəni itirmişik? Bəlkə günahkar müxalifətdir? Burada yadıma bu günlərdə Nobel mükafatı almış belorus yazıçısı S.Aleksieviçin öz ölkəsinin müxalifəti ilə bağlı dediyi bir fikri düşdü. O, deyirdi ki, Belarus müxalifətinin sıralarında kulturoloq, xəyalpərvər və hətta romantik adamlar çoxdur, amma ki, siyasətçi, bəli, siyasətçi yoxdur...

Bu fikri eynilə Azərbaycan müxalifəti haqda da demək mümkündür - onlar da siyasətdən başqa hər şeyi bacarırlar. Amma yenə də bütün günahı müxalifətin çiyinlərinə yükləmək istəməzdik. Düzdür, bir daha deyirik ki, onlara qarşı irad bildirmək üçün kifayət qədər əsas var...

Hərə onlara, eləcə də bütün zəif müxalifətlərə bir "resept" yazır. Elə bu günlərdə keçmiş Polşa prezidenti Lex Valensa da Rusiya müxalifətinə maraqlı təkliflər vermişdi. O, da deyir ki, özünüzün hakimiyyətdən intellektual üstünlüyünüzü sübut edin, ölkə elitası ilə, daha doğrusu, intellektual elita ilə rabitə yaradın, göstərin ki, siz problemlərin daha elmi və daha intellektual həllini bilirsiniz, onda cəmiyyət sizlərə tərəf dönəcək...

Prinsipcə, bu iradla da razılaşmaq olar. Azərbaycan müxalifətinin də intellektual durumu ürəkaçan deyil. Amma bu, o deməkdirmi ki, ölkədə ona görə heç nə baş vermir ki, müxalifətin öz Marksları, Leninləri yoxdur? Bəlkə də bunun da haradasa təsiri var, amma güman edirik ki, o, həlledici olsun...

Bəs əsas səbəb nədir? Odur ki, cəmiyyətimiz olduqca zəifdir. Bizim insanlar daha az müqavimət tələb edən "trayektoriyalar" seçməyə çox meyllidirlər...

Təsəvvür edin, hakimiyyət ilk dəfə korrupsiya haqqında guya ki, ciddi danışmağa başlayanda insanların arasında böyük məyusluq yaranmışdı. Bəlkə də inanmazsınız, amma onlar deyirdi ki, əşi, pulumuzu verib problemimizi həll edirdik, indi nə edəcəyik? Fəqət, xoşbəxtlikdən, ya da ki, bədbəxtlikdən çox tez bir zamanda belə məlum oldu ki, hakimiyyətin korrupsiya haqqında dedikləri növbəti şüardan savayı bir şey deyilmiş və buna əmin olan insanlar sanki rahatlıq tapdılar...

Bunu niyə deyirəm? Məsələ bundadır ki, cəmiyyətimiz təkcə zəif deyil, o həm də mənəvi devalvasiyaya məruz qalıb, açığı, biz bir az deqradasiya olunmuşuq, dəyərlər və onların ierarxiyası aşınıb. Ona görə də heç nə alınmır. Maarifçiliyə qapılmaqda da ümid budur ki, bəlkə heç olmasa, bu yolla bunları yoluna qoymaq, mənəvi saflaşmaya təkan vermək mümkün oldu...



# Bəbir dərisi

Samir SARI

**Adama bax, gedib meşəyə, ovlanması qadağan olunan bəbiri vurub öldürüb, sonra dərisini soyub bazarda 15 min manata satmaq istəyərkən tutulub.**

Hər şey o tərəfə, bir bəbirin dərisini kənd yerində 15 min manata kim alacaqmış, görəsən? Bu pula yeddi baş yanıbalalı camış almaq olar. Yəqin ki, bəbir ovçuları axırda o dərini Türkiyə istehsalı olan dəri gödəkçənin qiymətinə verəcəkdilər.

Amma indi ölkəmizdə Qırmızı kitaba düşmüş bəbir daha yoxdur. Allah bilir, onlardan neçə baş qalmışdı, onun da birini Astaranın Sım kənd sakini, 1995-ci il təvəllüdlü Böyükağazadə Natiq vurdu, geridə bir dərisi qalmışdı, onu da hüquq-mühafizə orqanları müsadirə etdi.

Rəsmi açıqlamada deyilir ki, Natiq bu işi tamah məqsədilə edib. Ancaq hiss olunur ki, gənc bu işə məsuliyyətsizlikdən, bilməzlikdən qol qoyub. Bəlkə də birinci dəfəymiş ki, bəbir görürmüş, elə bilib, pələng-zaddır, bunu tutub yeyəcək. Yəqin ki, o elə müstəntiqə də o cür deyəcək, and içəcək ki, dovşan vurmağa gedirdim, qəfildən ağacdan üstümə atıldı, elə bildim, pələngdir, can hövlüylə dönüb vurdum, yoxsa məni parçalayacaqdı...

Əslində bəbir *(bəzi mənbələrdə - qaplan)* deyəndə bir az yekə çıxır, hətta "pantera" deyəndə lap yekə çıxır, amma astaralı qardaşın gülləsinə tuş gələn bu heyvan babat çoban iti boyda bir şeydir. Düzdür, güclüdür, qıvraqdır, yırtıcıdır, fəqət, o qədər də boy-buxunlu, qorxulu bir heyvan deyil, "pıqq" eləyib qorxutsan, qaçıb gedər.

Bu, birinci dəfə deyil. Bir dəfə də Talış meşələrində bir nəfər bəbir öldürmüşdü, onu da tutmuşdular. Ta bilmirəm onun taleyi necə oldu - pələng öldürmüş pəhləvan kimi türmədə yatır, yoxsa pulunu alıb, özünü buraxdılar. Adamın ömrü ikinci variant üzrə axıb gedirsə, yəqin ki, indi dovşan vurmağa da qorxur.

İndi söz yox, Böyükağzadədən və onunla birlikdə dərini satmaq istəyən Çükəşli Səməd Fərəcovdan bir neçə cöngənin pulunu alacaqlar. Bəlkə də gənclərin bəbirin dərisinə qoyduqları qiyməti özlərinə oxuyacaqlar.

Beləcə, bəbirdən soyulmuş dəriyə görə Səmədlə Natiqin özünün "dərisini soyacaqlar", ağılları başlarına gələcək.

Çünki işin maddələri ağırdır, onlara qarşı CM-nin 258.2.3-cü (qanunsuz ov etmə, ovlanması tamamilə qadağan edilmiş heyvanlara qarşı törədildikdə) maddəsi irəli sürülüb.

Əgər onlar dərini qurudub öz maşınlarının söykənəcəyinə atsaydılar, ya da evlərində ayaq altına sərsəydilər, yazıq bəbirinin qanı ara yerdə batıb gedəcəkdi.

Kim bilir, nə qədər brakonyer belə edir, ovlanması qadağan olan heyvanları öldürüb nəslini kəsir, cinayətin üstü də açılmır.

Biz illərlə belə etmişik deyə ölkəmizdə bəbir-filan qalmayıb. Ceyranları da birtəhər qoruyub saxlayır, artırırlar, amma bəbirlərin günü qaradır. Ayıları da ki, istəyəndə tutub kəsirik, istəməyəndə qəfəsə salıb uşaq-muşağın qabağında dombalaq aşırdırıq.

Balıq tutmaq üçün çaya, gölə qumbara atan, elektrik cərəyanı verən, zəhər tökən camaatıq, biz meşədə ayı, bəbir, qaban qoyarıqmı qalsın? O vaxt, yadınızdadırmı, Şamaxıda bir ayını it gününə qoymuşdular, o da acından və hirsindən camaata hücum eləmişdi.

Şəhər kənarındakı, rayonlardakı balaca göllərdən soraq alın, dərmana bir balıq tapılmaz. Ya gölü ümumiyyətlə qurudublar *(suyunu axıtdıqdan sonra balıqları dənləmək üçün)*, ya da yuxarıda dediyim kimi, kürüdən təzə çıxmış balıqcıqları da zəhərlə, elektrik cərəyanı ilə qırıblar. Meşələrdə də artıq çaqqal qalmayıb, qorxularından qaçıb gediblər ki, birdən dərilərini tülkü dərisi yerinə soyub satarlar.

Bu yerdə bir sıra Avropa ölkələrində flora və faunanın necə qorunmasından, brakonyerlik etmək istəyənlərin sərt şəkildə cəzalandırılmasından-filandan xeyli danışmaq, maraqlı hekayətlər yazmaq olar. Amma nə xeyri var? Bəbir öldürənlər belə hekayətləri bilmərrə oxumurlar, bilmirlər, hətta bilsələr də, xarici nümunə-filan hərləmirlər, bəbir hərləyirlər.

## Qalmaqallı maliyyəçi haqda sensasion məlumatlar

# "Şapka Mamed" borclarını almaq üçün qoçu dəstəsi saxlayır" - qalmaqal

### "Turanbank"ın sahibinin müştərilərdən kreditlərini hədə-qorxu yolu ilə aldığı deyilir: Məmməd Musayevin bu iş üçün hətta qoçu saxladığı iddia olunur; girov təminatlı istehlak kreditləri müştərilərdən məhkəmə yolu ilə deyil, reket üsulu ilə geri alınır



**Bu il fevralın 21-də manatın dollara nisbətən ucuzlaşması iqtisadi sferada ciddi təlatüm yaratdı. Ölkənin həyat ritmi pozuldu. Bu qərar nəinki biznes sahəsinə, bütövlükdə ölkə boyu bütün sektorlara öz mənfi təsirini göstərdi. Bu təsir bu gün də davam edir.**

Təbii ki, devalvasiyadan daha çox ziyan görən sahələr olmamış deyil. Əsasən maliyyə qurumları - banklar məlum olaydan ciddi zərərlə çıxdı. Əslində "çıxdı" feli burda situasiyanı tam ifadə etmir, bəlkə də heç yerinə düşmür. Ölkə, üstündən 8 aya yaxın vaxt keçməsinə rəğmən, 21 fevral qərarının nə şokundan çıxa bilib, nə zərərindən.

Bu qərardan sonra banklarla vətəndaşlar arasında ciddi gərginlik yaşandı. Dollarla kredit götürən xeyli sayda sahibkar, biznes adamı və sadə vətəndaş bunun altını hələ də çəkir. Dollarla kredit götürüb onu 33 faiz bahasına ödəmək, əlbəttə, ciddi zərərlə müşayiət olunur. Bu, həm vətəndaşın, həm bankın zərəridir. Onsuz da ölkə insanı neçə illərdir kredit yükünün altındadır. Devalvasiya da bir yandan bu yükü artırmış oldu...

Devalvasiyadan sonra problemli kreditlərin sayı artır. Ona görə də müştərilərlə banklar arasında münasibətlər bəzi hallarda hüquqi müstəvidən çıxır. Krediti qaytara bilməyən, yaxud gecikdirən müştəri ilə bank rəhbərliyi arasında ciddi konfliktlərin olması haqda xəbərlər getdikcə intensivləşir.

Bu cür vəziyyətdən istifadə edən bank sahibləri də var. Yaranmış qarışıqlıqdan yararlanıb daha çox mənfəət əldə etməyə çalışanlar sırasında "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyətinin sədri Məmməd Musayevin də adına rast gəlinir.

Redaksiyamıza çatan bilgilərə görə, "Şapka Mamed" ayaması ilə tanınan Məmməd Musayev sahibi olduğu və rəhbərliyində təmsil olunduğu banklardan götürülən kreditləri özünəməxsus formada qaytarmağa çalışır. Onun bu "yeni" metodları ilə üzləşmiş vətəndaşlar "Yeni Müsavat"a maraqlı məlumat veriblər. Adının çəkilməsini istəməyən mənbə bildirir ki, M.Musayevin banklarından kredit götürən şəxslər təhdid və şantajla üzləşib. Mənbə bildirir ki, Məmməd Musayevin sahibi, oğlu Fuad Musayevin rəhbər olduğu "Turanbank"dan kredit götürən şəxslər ciddi psixoloji basqılara məruz qalır. Bizə çatan bilgiyə görə, M.Musayev dövlət idarələrində çalışan müştərilərə ismarış göndərib ki, krediti vaxtında ödəməsələr, rəhbərlərinə şikayət edəcəklər. Hətta ayrı-ayrı nazirlərə şikayət olunacağı xəbərdarlığı edilib. Bunun üçün M.Musayevin tapşırığı ilə siyahıların tutulduğu bildirilir. Mənbə iddia edir ki, həmin siyahılar üzrə hansı müştərinin hansı nazirliyin və ya başqa dövlət strukturunun nəzdində işlədiyi aydınlaşdırılır, sonra həmin müştəri banka dəvət edilir, M.Musayev o adamla "profilaktik söhbət" aparır. "Nazirinə səndən şikayət edəcəm" şantajı ilə müştəriləri hədələyir. Sonra da adamları onlara cinayət işi açdıracağı ilə qorxudur. Redaksiyamıza müraciət edən vətəndaşlardan birinin sözlərinə görə, o, Məmməd Musayevin diqqətinə bu davranışının qanunsuz olduğunu çatdırıb: **"Ona bildirdim ki, girov təminatlı istehlak kreditlərinin qaytarılmasında problem yarandıqda borcverən tərəf (bank) mülki qaydada məhkəməyə müraciət edə bilər. Məmməd müəllim bildirdi ki, bu ölkədə qanun var ki, məhkəməyə mülkü qaydada şikayət verə?!"**

Şikayətçilər bildirir ki, M.Musayev sahibi olduğu banklarda problemli kredit məsələsinin bir başqa formasını da sınaqdan keçirməkdədir. Şikayətçilər iddia edirlər ki, o, bu iş üçün qoçu da saxlayır: **"Məmməd Musayev kreditlərin faizlərinin vaxtında ödənilməsi, yaxud ana məbləğin qaytarılması üçün fiziki gücdən istifadə edir. Bu məqsədlə yanında Vasif Qasımov ad-soyadlı idmançı saxlayır. Həmin Vasif də özü kimi bir neçə idmançıdan ibarət qrup yaradıb ofislərə, evlərə gedib müştəriləri qorxudur, onları hədələyir."**

Bu iddiaların hansının doğru, hansının yalan olduğunu söyləmək çətindir. Haqqında ciddi ittihamlar səslənən Məmməd Musayevin özü ilə danışıb ondan səsləndirilən şikayətlərə münasibət öyrənmək cəhdlərimiz baş tutmadı. M.Musayev mediada haqqında yazılanlara heç vaxt münasibət bildirməyib. Amma buna baxmayaraq, M.Musayevin özünün, yaxud nümayəndəsinin mövqeyini dərc etməyə hazırıq.

Xatırladaq ki, M.Musayev uzun illərin maliyyəçisidir. O, indiyədək özünə böyük biznes imperatorluğu qura bilib. Onun bu sahədə xüsusi istedadının olduğu haqda məlumatlara rast gəlmək mümkün deyil. Görünür, M.Musayev bir çox məmurlar və iqtidara yaxın şəxslər kimi dövlətin resurslarından yararlanaraq biznesmen olub.

M.Musayev bir neçə vəzifə tutur. O, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti olmaqla yanaşı, "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyətinin sədri, "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri, Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyətinin üzvüdür. Həmçinin "Turanbank"ın sahibidir. Bu banka hazırda onun oğlu rəhbərlik edir.

❑ Aydın ASLAN

# Müsavat başqanının müavini doğum gününü yenə həbsxanada keçirdi

### Bu gün partiya qərargahında Fərəc Kərimli ilə bağlı yubiley tədbiri keçiriləcək

**Oktyabrın 12-də həbsdə olan Müsavat başqanının müavini Fərəc Kərimlinin 30 yaşı tamam oldu. Vicdan məhbusu 2-ci doğum gününü də dəmir barmaqlıqlar arxasında keçirdi. Başqan müavininin ünvanına sosial şəbəkələrdə çoxsaylı yubiley təbrikləri ünvanlandı.**



Fərəc Kərimli

F.Kərimlinin atası Raqif Kərimli müsavat.com-a açıqlamasında oğlunun doğum gününü həbsxanada onunla birlikdə qeyd etdiklərini söylədi: "Doğum gününü cəzaçəkmə müəssisəsində Fərəclə birlikdə qeyd etdik. Ad günü tortu apardıq. Hər kəsin təbriklərini çatdırdıq. Evdə qeyd etməyəcəyik. Fərəc olmadan mənası yoxdur. İstəməzdim ki, oğlum yubiley gününü həbsxanada keçirsin. 30 yaşı tamam olur. Özünün və dostlarının iştirakı ilə doğum günü olmasını istərdik. Təəssüf ki, bu mümkün deyil. Özü də dedi ki, həbsxanada dostlarla birlikdə qeyd edəcəyik. Oğlumun ailə həyatı qurmaq vaxtı da keçir. 30 yaşdan sonra evlənmək artıq gec olur. Qabağına sədd çəkilib. Sosial şəbəkələrdə çoxlu sayda təbriklər oldu. Partiyada da qeyd edəcəklər. Rayon təşkilatının sədri təbrik etdi. Fərəc onu təbrik edən hər kəsə təşəkkürünü çatdırmağımı söylədi. Səhhəti, əhval-ruhiyyəsi normal idi. Salamları var".

**Müsavat gəncləri də Kərimlini unutmayacaqlar. Bu gün saat 14:00-da Müsavat qərargahında yubiley tədbiri keçiriləcək. Bu barədə musavat-com-a Müsavat gənclərinin konfransla bağlı yaratdıqları Təşkilat Komitəsinin üzvü Əbülfəz Sadıqbəyli məlumat verdi:** "Tədbir qərargahda təşkil olunacaq. Standart tədbirlərdən biri olacaq. Qonaq qismində AXCP, VHP, NİDA, REAL və digər müxalifyönlü təşkilatların hər birinə dəvət göndəriləcək. Tədbiri saat 2-yə planlaşdırmışıq".

Xatırladaq ki, Fərəc və Sirac Kərimli qardaşları ötən ilin iyulunda həbs olunublar. Hər iki qardaş Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, satma, daşıma) maddəsi ilə ittiham olunub. F.Kərimli 6 il yarım, Sirac Kərimli isə 6 il müddətinə azadlıqdan məhrum edilib.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 226 (6254) 13 oktyabr 2015

# Gürcüstan bizi Rusiyaya "satsa"... Bakının "B" planı varmı?

## İqtisadçı ekspertlərdən ilginc şərhlər

**Son günlər Gürcüstan onun ərazilərini ilhaq etmiş Rusiyaya yönəlik reveranslarla diqqət çəkir. Xüsusilə də Tiflisin Rusiyanın "Qazprom" şirkəti ilə qaz danışıqlarına başlaması Azərbaycanda ciddi müzakirələrə səbəb olub. On illərdir Azərbaycanın enerjidaşıyıcılarının sayəsində ayaqda duran qonşularımızın bu gün Rusiyadan daha ucuz qiymətə qaz almaq sevdasına düşməsi haqlı suallar doğurur.**

Qeyd edək ki, Gürcüstanın əsas qaz təminatçısı Azərbaycandır və indiyədək SOCAR-la yerli hökumət arasında heç bir anlaşılmazlıq olmayıb. Hətta şirkət gürcülərə qazı daha ucuz satır, nəinki Azərbaycan vətəndaşlarına. Lakin bugünlərdə gürcü rəsmilər Rusiyadan qaz idxal olunacağı halda Azərbaycan qazının qiymətinin də enə biləcəyindən danışmağa başlayıblar. Bunun ardınca isə baş nazir İrakli Qaribaşvilinin Azərbaycana qəfil səfəri, onun prezident İlham Əliyevlə üç saatlıq danışıq aparması, eyni zamanda Azərbaycanın dövlət başçısının Tiflisə rəsmi səfərinin nəzərdə tutulması məsələlərin ciddiliyindən xəbər verir. Düzdür, baş nazirin müavini, Gürcüstan-Rusiya əlaqələrinin kuratoru Zurab Abaşidze Azərbaycanı sakitləşdirmək üçün bəyan edib ki, söhbət sırf kommersiya danışıqlarından gedir və istənilən halda Azərbaycan Gürcüstanın əsas qaz ixracatçısı kimi qalacaq. Lakin söhbət ondan gedir ki, rəsmi Tiflis sürətlə Rusiyanın qarşısından geri çəkilir. Üstəlik, başı Suriya böhranına qarışan Qərb də bu vəziyyətə seyrçidir. Eyni zamanda Azərbaycana marağın azalması barədə iddialar da ciddiləşir. Hətta Qərbin Cənubi Qafqazın digər iki respublikasını da Rusiyaya güzəştə getdiyi iddiaları səslənir. Bəzi ekspertlərin fikrincə, bəlkə də Suriyadan çıxmağın qarşılığında Rusiyanın mükafatı Gürcüstan və Azərbaycan ola bilər. Azərbaycan yeganə qapısından məhrum olduğu halda, hansı addımları atacaq? Rəsmi Bakının "b" variant varmı?

**Deputat, iqtisadçı ekspert Əli Məsimli "Yeni Müsavat"a dedi ki, Gürcüstanın ən çətin anlarında ona fikirdə, sözdə və işdə dəstək verən, ona hayan duran məhz Azərbaycan olub:** "Azərbaycanın enerjidaşıyıcılarının dünya bazarına çıxan əsas kommunukasiya xətləri Gürcüstandan keçir. Bu həm də Azərbaycanla Gürcüstan arasında energetika sahəsində davamlı əməkdaşlıq üçün güclü bazadır. SOCAR Gürcüstanda inkişaf etmiş infrastruktur və bu ölkənin enerji bazarında böyük paya malikdir. Gürcüstan Azərbaycandan həm də güzəştli şərtlərlə qaz alır. Deməli, Azərbaycanla bağlı narazılıq ola bilməz. Gürcüstanla Azərbaycan arasında son danışıqlara gəldikdə isə ola bilsin dünya bazarında neftin qiymətinin kəskin surətdə aşağı düşməsinin qazın qiymətinə də təsiri baxımından müzakirələr aparılsın. Digər müzakirə olunacaq məsələ Azərbaycanın Gürcüstan ərazisindən keçən boru kəmərlərinin tranzit qiymətləri ilə əlaqədar ola bilər. Bundan əlavə, ola bilsin Gürcüstan qaz təchizatını şaxələndirmək istəyir. Bu hal Azərbaycanın Gürcüstanın energetika bazarında payının azalmasına gətirib çıxara bilər". **Amma Ə.Məsimli hesab edir ki, bu variant belə Azərbaycanın Gürcüstan bazarını itirəcəyi anlamına gələ bilməz:** "Çünki əvvəla, SOCAR Gürcüstanda maraqların harmoniyasına cavab verən kifayət qədər oturuşmuş sistem qura bilib. İkincisi, ən çətin anlarda Gürcüstanın köməyinə həmişə Azərbaycan çatır. Üçüncüsü, əgər Gürcüstan Avropa İttifaqına can atırsa, onda bu ölkə qaz sarıdan Rusiyadan asılılığı azaltmaq xətti götürən Avropa İttifaqının strateji xəttinə tam zidd olan siyasət yeridə bilməz. Gürcüstanın hansısa siyasi qüvvəsinin nümayəndəsinin əlaltdan təşəbbüsü ilə buna cəhdlər ola bilər, amma bu cəhdlər tam reallaşa bilməz".



**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın fikrincə, Gürcüstan elə düşünür ki, Rusiyadan ucuz qaz almaq üçün kifayətdir ki, Azərbaycan qazının və ya Ermənistana axan rus qazının qiymətini "Qazprom"a nümayiş etdirsin və sonra bununla mediada ajiotaj yaratsın:** "Ancaq əsla belə deyil. Kreml dünyada qazdan bir alət kimi istifadə etməyi bacaran bəlkə də yeganə dövlətdir. Bu baxımdan Gürcüstanın da Rusiya qazının öz ölkəsinə regional qiymətlərlə axması üçün gərək ilk növbədə xarici siyasətinə kəskin korrektə etməsi, dövlət binalarına taxdığı Avropa İttifaqının bayraqlarını isə ən azından çıxarması lazımdır".

**O ki qaldı Rusiyanın Azərbaycanı Gürcüstanın qaz bazarından sıxışdırıb çıxarması məsələsinə, İ.Şaban hesab edir ki, bu məsələ KİV-lərdə dramatikləşib:** "Ən azından ona görə ki, hazırda Gürcüstanın qaz bazarı 2,2-2,4 mlrd. m3 istehlak səviyyəsi arasında (hava şəraitindən asılı olaraq) dəyişir və bunun 300 mln m3-u Rusiya qazının Ermənistana ötürülməsindən alınan tranziti hesabınadır. Yerdə qalan qaz həcmləri isə Azərbaycan qazı hesabına formalaşır". **"Bəs niyə birdən-birə Gürcüstanın Rusiyadan qaz almaq məsələsi gündəmə gəldi" sualına gəldikdə, ekspert deyir bunun iki səbəbi var:** "Birincisi, 2016-cı ildə Ermənistanda Razdan istilik elektrik stansiyasının 5-ci blokunun tam gücü ilə işlənilməsi planlaşdırılır, bundan əlavə, hava şəraitinin bu illə müqayisədə daha sərt keçəcəyi də proqnoz edilir. Yəni qaza tələbat artacaq. Bu baxımdan "Qazprom"un Gürcüstan üzərindən Ermənistana qaz nəqli artmalıdır. Təbii ki, bu zaman Gürcüstana çatacaq qaz tranziti həcmləri də artacaq. İkincisi, Azərbaycan tərəfinin Gürcüstanın artan tələbatını ödəyə bilməməsi ilə bağlı energetika naziri Kaxa Kaladzenin KİV-lər üçün məlum bəyanatı. Təbii ki, əgər Azərbaycanın daxili bazarında ehtiyaclar artıbsa, o artıq qonşusunun bazarı haqda düşünməyəcək. Bu baxımdan Gürcüstan Rusiyadan müəyyən qədər qazı (bir neçə yüz milyon kub metr) kommersiya müqaviləsi ilə "Qazprom"dan almaq istəyərdi. Ancaq bunu sərfəli qiymət baxımından etmək istəyir. Ona görə də KİV-lərə hətta İran tərəfi ilə qapalı danışıqlar apardığına dair informasiyalar ötürür. Əslində isə bu, mümkün bir şey deyil, nə qiymət baxımından Tiflisi qane edəcək, nə də logistik baxımdan. Necə deyərlər, hərə öz maraqları uğrunda imkanı daxilində mübarizə aparır və informasiya "müharibəsində" qonşularımız Azərbaycanı təəssüf ki, qabaqlayırlar".

**İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri Azər Mehtiyev isə bildirdi ki, hazırda Azərbaycanın iqtisadi baxımdan dünyaya əsas və başlıca çıxış qapısı Gürcüstandır:** "İxrac neft-qaz kəmərlərimiz oradan keçir, Bakı-Tbilisi-Qars dəmir yolu. Təbii ki, bundan Gürcüstanın da ciddi uduşları var: həm enerjidaşıyıcılarını sərfəli qiymətlə əldə edir, həm də tranzit haqqı alır. SOCAR orada ən böyük vergi ödəyicilərindəndir. Rusiyanın Gürcüstana təsirinin artması baş verərsə, heç şübhəsiz Kremlin Azərbaycana əlavə təzyiq vasitəsi kimi istifadə etmək imkanları yaranır. Xüsusilə TANAP və TAP layihələri üçün problemlərin yaranması imkanları artır". **Amma A.Mehtiyev zənn edir ki, Gürcüstanın yalnız iqtisadi maraqlar naminə Rusiyaya yaxınlaşmaqla Azərbaycanı ciddi problemlərlə üzə-üzə qoyacağı o qədər də inandırıcı deyil:** "Çünki ortada Gürcüstanın müstəqilliyinə təhdidlər var. Azərbaycan və Gürcüstan yalnız iqtisadi baxımdan deyil, əslində daha çox məhz siyasi baxımdan - dövlət müstəqilliyini qorumaq baxımından - bir-birinə ehtiyacı olan ölkələrdir".

❑ **E.PAŞASOY**

# "Meydan TV" və AzadlıqRadiosu qanundankənar elan olundu

## Xarici İşlər Nazirliyi: "Onlar qeydiyyatdan keçməyiblər..."

**"Meydan TV" adı altında özünü təqdim edən qurum və "Azadlıq.org" saytı Azərbaycanda rəsmi formada fəaliyyət göstərmək üçün qeydiyyatdan keçməyib.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib.

XİN rəsmisinin sözlərinə görə, "Meydan TV" və "Azadlıq.org" qeydiyyatdan keçmək üçün nazirliyə müraciət etməyiblər.

H.Hacıyev qeyd edib ki, "BBC Azərbaycan" xidmətinə gəldikdə isə bu qurum və onların əməkdaşları mütəmadi olaraq akkreditasiyadan keçirlər.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bu barədə açıqlamasında bildirib ki, "İnteraz", "Euroaz" televiziya kanalları, "Amerikanın səsi" radiosu, "Meydan TV" internet saytı və bir sıra digər xarici media orqanları və onların əməkdaşları dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bu günə qədər müvafiq qaydalara əməl etmir və ölkə daxilində qeyri-qanuni fəaliyyət göstərirlər.

Qeyd edək ki, Xarici dövlətlərin ərazisində hüquqi qeydiyyatdan keçmiş KİV-lər Azərbaycan Respublikasının ərazisində peşəkar KİV, media fəaliyyəti ilə məşğul olmaq istədikləri təqdirdə Azərbaycan Respublikasında xarici KİV nümayəndələrinin akkreditasiya qaydalarına uyğun olaraq Xarici İşlər Nazirliyində qeydiyyatdan keçməlidirlər.

Bu baxımdan "Meydan TV" və "Azadlıq.org" saytlarının Azərbaycan dilində fəaliyyəti qanunsuzdur.

**Media Hüququ İnstitutunun rəhbəri Rəşid Hacılı bildirdi ki, xarici KİV-lərin Azərbaycanda fəaliyyəti üçün akkreditasiya tələbi "KİV haqqında" Qanunda nəzərdə tutulub. Müsahibimizin sözlərinə görə, Xarici İşlər Nazirliyi də akkreditasiya qaydalarını müəyyən edib:** "Amma xarici KİV-lərin fəaliyyəti anlayışı birtərəfli şərh edilir. Azərbaycanda hər kəsin istədiyi məlumatı almaq, hazırlamaq və yaymaq hüququnu Konstitusiyanın 50-ci maddəsi verib. Hər kəs dünyanın istənilən yerindəki KİV-lərə yaza bilər, foto, video göndərə bilər. Bu hüququ heç nəylə məhdudlaşdırmaq olmaz. Ştatdankənar və ya "free lans" yazar da ola bilər. Kimə istəyir yazır və s. Buna yasaq qoyula bilməz".

### Rəşid Hacılı: "Qanunda xarici KİV-lərin fəaliyyəti anlayışı birtərəfli şərh edilir"

**R.Hacılı dedi ki, əgər xarici KİV burada redaksiya qurursa, işçilər götürürsə, hökumət tədbirlərində iştirak etmək istəyirsə, onda akkreditasiyadan keçməsi tələb oluna bilər. Müsahibimizin sözlərinə görə, amma indiki kampaniyanın birbaşa hədəfinin "Meydan TV" olması aydın görünməkdədir:** "Onunla əməkdaşlıq edən jurnalistlərin polisə çağırılması, izahat və ifadələr alınması, birinin hətta həbs edilməsi bunu deməyə əsas verir".

Oktyabrın 12-də saat 15 radələrində şəxsiyyət vəsiqəsini almaq üçün Sumqayıt şəhərində yerləşən ASAN Xidmətə gedən jurnalist Aytən Fərhadova (Ələkbərova) saxlanılıb. Bu barədə "Meydan TV"yə jurnalistin özü məlumat verib. Onun sözlərinə görə, hazırda 3-cü polis bölməsinə aparılır: "Şəxsiyyət vəsiqəmi itirmişəm. Yenisini almaq üçün ödəniş etmişəm, bu gün götürməli idim. Adımın qarşısında "saxlanmalı" yazıldığı üçün ASAN Xidmət məni polisə təhvil verir. Hazırda Sumqayıtdakı 3-cü polis bölməsinə aparılıram".

Saat 17 radələrində jurnalist sərbəst buraxılıb. Ona bildiriblər ki, oktyabrın 13-də saat 15.00-də DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində (Bandotdel) olmalıdır. Ancaq səbəbini izah etməyiblər.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 226 (6254) 13 oktyabr 2015

# Müsavat seçki pozuntularına dair hesabat yaydı

## AMİP isə Oqtay Əsədovdan MSK-ya şikayət yazdı

**Oktyabrın 12-də Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan daxil olan məlumatda deyilir ki, iclasda Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahının rəhbəri Gülağa Aslanlı seçki prosesi barədə ətraflı məlumat verib. Seçki dairələri üzrə vəziyyət analiz edilib. Divanda qardaş Türkiyə Cümhuriyyətində baş verən terror hadisəsi qətiyyətlə pislənilib. Faciədə həlak olanların ailələrinə, yaxınlarına və Türkiyə xalqına başsağlığı verilib.**

Yığıncaqda 1 noyabr 2015-ci il tarixdə keçiriləcək parlament seçkiləri ilə bağlı Müsavat Partiyasının seçki platforması əsas kimi qəbul edilib.

İclasda Mərkəzi Seçki Komissiyasının şikayətləri araşdırarkən ayrı-seçkiliyə yol verdiyi Müsavat Partiyasına, bütövlükdə müxalifətə qarşı qərəzli mövqe nümayiş etdirdiyi bildirilib.

Divanın 10 oktyabr 2015-ci il tarixli iclasında namizədlərə pulsuz efir vaxtının ayrılması haqqında Müsavat Partiyası adından tələbə MSK-nın heç bir reaksiya verməməsi ictimai diskussiyalara hakimiyyət tərəfindən imkan verilməməsinin növbəti nümunəsi kimi dəyərləndirilib.

Divan pulsuz efir vaxtının seçkilərin təşviqat mərhələsində bərabərhüquqlu təbliğat imkanları prinsipinin mühüm elementi olduğunu bir daha vurğulayıb.

Sonda carı məsələlər müzakirə edilib.

Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahı isə dünən 1 noyabr parlament seçkiləri ilə bağlı aralıq hesabat yayıb. Sənəddə qeyd olunur ki, 1 noyabr 2015-ci il tarixli Azərbaycan Respublikası Milli Məclisinə deputat seçkilərinin azad və ədalətli keçirilməsi üçün demokratik seçkiqabağı şərait mövcud deyil, bu məqsədlə müvafiq qanunvericilik bazası yaradılmayıb.

Siyasi partiyaların bərabərhüquqlu siyasi rəqabət şəraitində fəaliyyəti təmin edilməyib. Azərbaycan Konstitusiyasında siyasi partiyaların yeri təsbit olunmayıb. Proporsional seçki sisteminin ləğv edilməsi ilə seçkilərdə siyasi partiyaların rolu daha da məhdudlaşdırılıb.

Məhkəmə hakimiyyəti icra hakimiyyətinin nəzarəti altında qalmaqda davam edir. Seçki Məcəlləsinə əsasən seçki komissiyalarının tərkibi və oradakı vəzifələrin bölgüsü seçkidə iştirak edən tərəflərin qarşılıqlı etimadını təmin edən prinsiplərlə yaradılmır. Bütün seçki komissiyaları faktiki olaraq hakim siyasi qüvvənin iradəsi əsasında təşkil edilir.

Hesabatda sonra deyilir ki, namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesi sadələşdirilməyib.

Dairə seçki komissiyasının Protokolunun doldurulması haqqında Təlimatda Seçki Məcəlləsinin tələblərinə riayət edilməməsinin, seçki şikayətlərinə baxılma prosesinin qeyri-şəffaflığı və digər məsələlərin aradan qaldırılması mexanizmləri nəzərdə tutulmayıb. Nəticədə seçki kampaniyasının ilk mərhələsində, yəni namizədliyin təsdiq edilməsi, qeydə alınması və şikayətlərə Mərkəzi Seçki Komissiyasında, Apelyasiya Məhkəməsində və Ali Məhkəmədə baxılması zamanı saysız-hesabsız saxtakarlıqlara və qanun pozuntularına yol verilib.



Sənəddə həmçinin bildirilir ki, deputat seçkilərinin ilk mərhələsində - namizədliyin təsdiq edilməsi, qeydə alınması və şikayətlərə Mərkəzi Seçki Komissiyasında, Apelyasiya Məhkəməsində və Ali Məhkəmədə baxılma zamanı son illərdə ölkəmizdə keçirilən *(prezident, parlament, bələdiyyə, referendum)* seçkilərdə olduğu kimi, BMT, Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq qurumların müəyyən etdiyi demokratik standartlara, bu qurumlar qarşısında götürülən öhdəliklərə cavab verməyib. Seçkilərin azad və ədalətli keçirilməsinə nail olmaq məqsədilə ATƏT, Avropa Birliyi, Avropa Şurası, AŞ PA-nın Venesiya Komissiyasının və digər nüfuzlu beynəlxalq qurumların Azərbaycan hökumətinə dəfələrlə etdiyi tövsiyələr nəzərə alınmayıb.

Hesabatda vurğulanır ki, Azərbaycanda fəaliyyət göstərən ictimai və siyasi təşkilatların, bütövlükdə Azərbaycan cəmiyyətinin, eyni zamanda beynəlxalq qurumların ölkəmizdə demokratik hüquq və azadlıqların təmin edilməsi üçün siyasi islahatların həyata keçirilməsi istiqamətində bütün səylərinə baxmayaraq, demokratik seçkilərin keçirilməsi və ölkədə demokratik islahatlara başlanması imkanı növbəti dəfə itirilib.

AMİP-dən verilən xəbərdə isə deyilir ki, partiya tərəfindən namizədliyi Milli Məclisə Seçkilər üzrə 45 saylı DSK tərəfindən qeydiyyata alınan namizəd Təbriz Musayev Milli Məclisin sədri Oqtay Əsədovdan Mərkəzi Seçki Komissiyasına şikayət edib. Həmin şikayətdə qeyd olunur ki, Milli Məclisə seçkilər üzrə namizədliyi 45 saylı Abşeron DSK-dan qeydə alınan Milli Məclisin sədri Oqtay Əsədov təbliğat-təşviqat kampaniyası zamanı vəzifəsindən sui-istifadə edərək , Seçki Məcəlləsinin 88-ci maddəsini pozur. Belə ki, icra strukturları, büdcədən maliyyələşən idarə və müəssisələrin, nazirliklərin, dövlət qurumlarının işçilərini öz təbliğat-təşviqat kampaniyasına səfərbər edib. İnzibati resurslar onun xeyrinə istifadə edilir: **"Seçicilər məcburi qaydada Oqtay Əsədovun görüşlərinə gətirilir. Digər namizədlərə isə təbliğatlarını aparmaq və seçicilərlə görüşlər keçirmək imkanı yaradılmır".**

Bütün bunları nəzərə alaraq AMİP-çi namizəd MSK-dan deputatlığa namizəd Oqtay Əsədovun yol verdiyi qanun pozuntularının qarşısının alınması və bu kobud pozuntulara hüquqi qiymət verilməsi barədə qərar çıxarılmasını xahiş edib.

❑ **E.SEYİDAĞA**

# Türkiyə nə üçün atom silahına sahib deyil?



## Ankara faciəsi bu məsələni yenidən gündəmə gətirib;
## Qabil Hüseynli: "Türkiyə belə bir iddianı ortaya qoysa..."

**Oktyabrın 10-da Türkiyədə baş verən məlum terror aktı dünyanı hərəkətə gətirdi. Ankara faciəsi sözsüz ki, qardaş ölkəni daxildən zəiflətməyə, onun regiondakı və dünyadakı rolunu azaltmağa hesablanıb. Söz yox ki, bu dairələrin arealı çox-çox uzaqlara gedib çıxır.**

Amma bir məsələ var ki, müasir dövlətin gücünü həm də onun atom silahına malik olması müəyyən edir. Ən azı, belə ölkə ilə münasibətdə ehtiyatlı davranış olur, çünki nüvə silahı çox mühüm çəkindirici amildir. Rusiya hətta öz Hərbi Doktrinasına öz təhlükəsizliyini qorumaq üçün nüvə silahından istifadənin mümkünlüyü barədə müddəa daxil edib.

Bəs görəsən, PKK kimi böyük problemi olan, Qərb və Rusiya tərəfindən birmənalı münasibətə malik olmayan qardaş ölkənin nə üçün atom bombası yoxdur? Axı faktdır ki, Hindistanla problemi olan müsəlman Pakistan, ərəb dünyasında problem yaşayan İsrail, eləcə də tarix boyu Yaponiya ilə düşmən münasibətlərində olan Çin atom silahlarına malikdir. Amma iqtisadi-hərbi gücü onlardan geri qalmayan Türkiyə atom silahlarına malik deyil. Maliyyə cəhətdən qardaş ölkənin bu imkanlara yiyələnə bilməməsini söyləmək də ciddi görünmür. Bəs səbəb nədir?

**Politoloq Qabil Hüseynli Türkiyənin atom bombasına böyük ehtiyacının olduğu qənaətindədir:** "Nüvə silahı əldə etmək üçün ilk növbədə AES tikmək lazımdır. Türkiyə uzun müddət bu elektrik stansiyasından kənar durub. Nüvə silahının yayılmaması barədə beynəlxalq müqaviləyə də imza atıb. Bu isə ölkənin əl-qolunu bağlayan amillərdən biridir. Doğrudur, son zamanlar Rusiya ilə bağlanan müqavilə nəticəsində AES tikilməsi barədə razılığa gəlinib. Bu razılıq nəticəsində artıq tikinti işləri də başlayıb. Rusiya buraya 3 milyard dollardan çox vəsait yatırıb. Türkiyə ilə Rusiya arasında son zamanlar yaranan soyuq münasibət bu böyük layihənin həyata keçirilməsini sual altına qoydu. Ciddi bir şey olmasa da, bu məsələ ətrafında müxtəlif polemikalara rast gəlmək mümkündür. Türkiyənin müsəlman dövləti olması da ona müəyyən problemlər yaradır. Türkiyə nüvə silahına sahib olmaq iddiasını ortaya qoysa, İran kimi ona qarşı da təzyiqlər başlayacaq. Xatırladılacaq ki, nüvə silahının yayılmaması barədə müqaviləyə imza atıb. Amma onu da qeyd edim ki, Pakistan da belə problemlərlə üz-üzə qalmışdı. Lakin öhdəsindən gəlib nüvə silahını istehsal etməyi bacardı. Nüvə silahı ilə bağlı Türkiyə və Pakistan arasında müəyyən əməkdaşlıq mövcuddur. Türkiyənin bu sahədəki qurumu Pakistanla ciddi əlaqələrə malikdir. Güman edirəm ki, Türkiyə lazım gələrsə, Pakistanla nüvə tədqiqatları sahəsində ciddi əməkdaşlıq edə bilər. Bunun da mütləq nəticələri ola bilər. Amma nədənsə Türkiyə bu məsələlərdə ciddi səylər göstərmir".

**Politoloq Türkiyənin nüvə silahına yiyələnmək məsələsinin ciddi problem olaraq qaldığını da qeyd etdi:** "Nüvə silahının bütün komponentlərinin əldə olunması çox ciddi məsələdir. Türkiyə bu sahədə ciddi mütəxəssislər ordusu hazırlamalıdır. Bu mütəxəssislər bilavasitə bu işlə məşğul olmalıdırlar. SSRİ zamanında birmənalı olaraq, nüvə mərkəzləri qapalı olurdu. Orada çalışan insanların adları da bilinmirdi. Yalnız qocaldıqda, yaxud təqaüdə çıxdıqda həmin insanlar medallarla təltif olunur, cəmiyyət içərisinə çıxırdılar. Bu tədqiqatların aparıldığı kiçik şəhərlər də qapalı olurdu. Giriş-çıxışa icazə verilmirdi. Türkiyənin bunu həyata keçirməsi üçün böyük vəsait lazımdır. Çünki nüvə tədqiqatlarının aparıldığı yerlər yeraltında yerləşir. Ola bilər ki, dünya buna icazə verməsin. Onu da qeyd edim ki, nüvə ölkələri ilə ciddi əməkdaşlıq da şərtdir. Ciddi kadrlar korpusu lazımdır. Nüvə texnologiyasına sahib olmaq hazırkı vacib elmi tərəqqilərdən biridir. Türkiyəyə bu hava-su kimi lazımdır. Çünki qonşuluqda İsrail var, İran müəyyən müqavilələrə qol çəkməsinə baxmayaraq, nüvə silahını hazırlamağa yaxındır. Bundan əlavə, qonşu Rusiya dünyanın qabaqcıl nüvə ölkələrindən biridir. Bu nöqteyi-nəzərdən Türkiyənin də nüvə ölkəsinə çevrilməsi arzuolunan şeylərdən biridir. Çinə atom silahını SSRİ verdi. Pakistanın bu silahı əldə etməsinə Amerika göz yumdu. Şimali Koreya qapalı ölkədir. Heç bir müqaviləni vecinə almır. Onun da nüvə silahı var. İsrailə də ABŞ göz yumdu. Elə ölkələr var ki, qısa müddətdə nüvə silahını hazırlaya bilərlər. Almaniya və Yaponiyanı misal göstərə bilərəm. 3-4 aya mümkündür. Amma bu ölkələr beynəlxalq müqaviləyə qol çəkdiklərinə görə çətin duruma düşüblər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 226 (6254) 13 oktyabr 2015



# Ermənilər Qarabağda yeni qəsəbə salır, ATƏT isə danışıqlara çağırır

## Azərbaycan və Rusiya arasında növbəti silah anlaşması xəbəri yayıldı; rəsmi Bakı savaşın alternativini görmür; ekspertlər Suriya müharibəsinin Qarabağ münaqişəsinə dolayısı və birbaşa təsirlərindən danışır...

**Ermənistan Suriya ətrafında yaşanan gərginliklərdən istifadə edərək işğal altındakı Azərbaycan ərazilərinin qəsbini legitimləşdirmək üçün növbəti azğınlıqlara start verib. Bu barədə erməni mətbuatının yaydığı məlumatda deyilir.**

Xəbərlərə görə, Ermənistan Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ ərazisində beynəlxalq şirkətlərin iştirakı ilə yeni ekokənd *(ekokənd - bir qrup insan üçün ekoloji baxımdan təmiz ərazidə yaşamaq imkanı verən yaşayış tipi-red.)* salınacaq. Modern.az saytı Ermənistan KİV-nə istinadən xəbər verir ki, Əsgəran rayonunun Həsənriz *(erməncə "Norqyux")* kəndinin yaxınlığında yaradılacaq mərkəz aqrar, təhsil və turizm sahələrində müəssisələrin cəmləşdiyi kompleks rolunu oynayacaq. Oktyabrın 11-də Xankəndində təqdimatı keçirilən layihəni Rusiyada yaşayan erməni biznesmeni Ruben Vardanyanın təsisçisi olduğu "İDEA" təşkilatı maliyyələşdirəcək. Bunun üçün biznesmen 20 milyon dollar vəsait ayırıb. Məlumata görə, eko-kəndin yaradılmasında İsveçrənin "Gutundgu" şirkətinin əməkdaşları Kristian Müller və Rafael Enzler konsultant rolunda çıxış edəcəklər. İşğal altındakı torpaqlarda gerçəkləşəcək tikinti işlərinə isə Böyük Britaniyanın "Tim Flynn Architecs" memarlıq bürosunun rəhbəri Tim Flin başçılıq edəcək. Belə kəndlərdə müalicəvi və istirahət mərkəzləri, ekoloji təmiz məhsulların istehsalı üçün aqrar müəssisələr və s. olur.

Hələlik rəsmi Bakının məsələyə reaksiyası bəlli deyil. Görünən budur ki, işğalçılar eşşək yarışı keçirməkdən tutmuş, şərab festivalına qədər ən müxtəlif layihələri reallaşdırmaqla Qarabağın "sahibləri" olduqları rəyini aşılamaq, bu şəkildə də dünyanın dəstəyini qazanıb Azərbaycanı təslimçi sülhə vadar etmək istəyirlər. Ancaq Bakının və Azərbaycan xalqının mövqeyi dəyişməzdir, işğal altındakı ərazilər azad olunmasa, hərb yolu qaçılmaz olacaq. Belə olan təqdirdə isə milyonların cəlb olunması hesabına salınan qəsəbələr də yerlə bir olacaq. Fakt isə onu deyir ki, erməni tərəf ərazilərimizi öz xoşu ilə azad etmək niyyətində deyil.

Hələlik ortaya heç bir nəticə qoya bilməyən ATƏT-in Minsk Qrupunun həmsədrləri bu ayın sonunadək regiona səfər etməyi, Azərbaycan və Ermənistan prezidentləri ilə danışıqlar aparmağı planlaşdırırlar. Bu barədə APA-ya Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik məlumat verib. ATƏT-in baş katibi Lamberto Zanyer Moskvada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Daimi Şurasının iclasında çıxışında da oxşar fikirlər deyib.

Qarabağ nizamlanmasını Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Nikolay Bordyuja ilə müzakirə etdiyini deyən L.Zanyer Ermənistan-Azərbaycan sərhədində və regionda zorakılığın artmasından narahat olduqlarını bildirib. "Siyasi rəhbərliklə iş aparmaq lazımdır", - deyə o vurğulayıb. O, Azərbaycan və Ermənistan prezidentləri arasında görüşün baş tutacağını da istisna etməyib.

***

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, cəbhədə yaranan gərginliyə təsir edən amillərdən bir də regionda baş verən proseslərdir:** "Bunların birincisi Rusiyanın Suriya ilə bağlı proseslərə hərbi müdaxiləsidir. İkincisi isə Kollektiv Təşkilatı Müqaviləsi Təşkilatının (KTMT) Ermənistan ərazisində keçirdiyi hərbi təlimlərlə və məhz Ermənistanın bu təşkilatda hazırda sədrlik etməsidir. Məhz belə bir şəraitdə Ermənistan ordusunun sərhədyanı rayonlarda və Dağlıq Qarabağ ərazisi ilə təmas xəttində təxribatları gözlənilməndir. Düşünürəm ki, bu yolla ermənilər öz ərazilərində yerləşən 102 saylı Rusiya diviziyasını da bu problemlərə qatmağa və bir daha müttəfiq olduqlarını sübuta yetirməyə çalışırlar".

**A.Nağıyev belə bir durumda türk zabitlərinin Ermənistan ordusunda inspeksiya işlərinə başlamasına da diqqət yetirilməsini zəruri sayır, ancaq çox da uzaqgedən qənaətlərin çıxarılmasına lüzum görmür:** "Aparılması nəzərdə tutulan təftiş işləri 1990 -cı ildən NATO və Varşava Müqaviləsi Təşkilatı arasında müqavilənin davamı əsasındadır. Bu razılığa əsasən, hər iki təşkilatın sərhəddə təmas xəttində olan adi silahlar yoxlanmalıdır. Yeni müqavilə Avropada Adi Silahlar haqqındadır və təbii ki, Ermənistan və Türkiyə sərhədində də bir tərəfdən NATO qoşunları, digər tərəfdən isə Ermənistan silahlı qüvvələridir. Burada əsas məqsəd adi silahların balanslı olmasıdır. Təbii ki, Ermənistan ordusunun nümayəndələri də həmsərhəd olan Sarıqamış və digər ərazilərdə belə yoxlama aparıblar. Bunun isə Dağlıq Qarabağa heç bir aidiyyəti yoxdur və ümumiyyətlə, işğal olunmuş ərazilərdəki silahlar və qoşun hissələri qanunsuz silahlı birləşmələrdir. Təbii ki, artıq silahlar haqqında Avropanın müvafiq strukturlarına məlumat verilməlidir və bunun qarşısının alınması üçün tədbirlər görülməlidir. Yoxlamaların yekun protokoluna uyğun olaraq Azərbaycan öz fikrini bildirə bilər. Təəssüf ki, sərhəddə tək Ermənistan ordusu deyil, eyni zamanda Rusiyanın da hərbi hissəsi var və bütün kvotaları üstələyir".




**Politoloq qeyd etdi ki, Dağlıq Qarabağda və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılığın artması" adlı hesabat hazırlamaq üçün AŞPA-nın Dağlıq Qarabağ üzrə məruzəçisi Robert Volter sentyabrın 15-də Azərbaycan tərəfdən Dağlıq Qarabağa - təmas xəttinə faktaraşdırıcı səfər edib. Lakin belə bir formada hazırlanacaq hesabat separatçıları razı salmayıb və birtərəfli kimi qiymətləndirilib, məruzəçini isə əraziyə buraxmayıblar:** "Separatçıların fikrincə, Volter hesabatda onları işğalçı qismində deyil, məhz iki tərəf kimi göstərməli idi. Düşünürəm ki, Avropa Şurası buna adekvat cavab verməlidir və hesabatda bunun qanunsuz olduğunu göstərməlidir. Çünki bu, bir daha separat rejimin və onun havadarlarının beynəlxalq institutlara və onların qərarlarına olan saymaz münasibətindən xəbər verir".

**Türkiyə-Rusiya qarşıdurmasının Qarabağ konfliktinə hansı təsirlərinin olacağına gəldikdə, ekspertin fikrincə, təəssüf ki, Rusiya hələ də Türkiyənin hava sərhədini niyə pozduğu haqda normal bir izahat verməyib və çox güman ki, verməyəcək:** "Yəqin ki, bunlar kəşfiyyat xarakterli uçuşlar olub və əsas məqsəd Əsəd rejiminə qarşı Türkiyənin hansı addımlar atacağını öyrənmək məqsədi daşıyırdı. Bütün xəbərdarlıqlara məhəl qoymayan Rusiya tərəfi Su-30 və Su-24 təyyarələri ilə Türkiyə hava məkanına daxil olub. Təbii ki, buna cavab olaraq Türkiyə tərəfi də öz vertolyotları vasitəsilə iki dəfə Ermənistanın hava məkanına daxil olub və rusların hərbi obyektləri ilə bağlı kəşfiyyat uçuşları edir. Yəni artıq regionun geosiyasi vəziyyətindən asılı olaraq NATO-Rusiya qarşıdurması Cənubi Qafqaz dövlətlərinə, o cümlədən Azərbaycanın da hərbi və əməliyyat şəraitinə sirayət etməyə başlayır".

**Hərbi ekspert Üzeyir Cəfərov isə qeyd etdi ki, Türkiyənin Ermənistana hərbi heyət göndərməsi ilə bağlı xəbər bir qədər ajiotaj yaradıb:** "Əslində isə bu, adi və indiyə kimi də bir neçə dəfə reallaşdırılan bir ziyarətdir. Baxmayaraq ki, bu barədə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının budəfəki açıqlaması bir sıra gərgin və mürəkkəb siyasi, geosiyasi proseslər fonunda bir qədər təəccüb də doğurmuşdu. Məsələnin incəliklərini dərindən oxumayan və bilməyən dostlarımız bərk narahatçılıq keçirirdilər. Bu da təbiidir. Bir-birinə qarşı indiyə kimi məhz Ermənistanın həm əvvəlki, həm də indiki hərbi-siyasi rejiminin ağılsızlığına görə yaşanan gərginliklər azalmaq əvəzinə, artan xətlə davam edir. Səbəb isə sadədən sadədir: Türkiyə ordusunun nümayəndələri Ermənistana "Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə" çərçivəsində gediblər. Razılaşma çərçivəsində Türkiyə tərəfinin rəhbərliyi altında 11 oktyabr tarixindən Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə çərçivəsində bizə düşmən mövqe sərgiləyən rəsmi İrəvanın hərbi sahədəki konkret fəaliyyətinə nəzarət həyata keçiriləcək".

**Lakin Ü.Cəfərov xatırlatdı ki, Türkiyə Nəzarət Qrupu təkbaşına deyil, ora həmçinin Slovakiyadan olan hərbçi də daxildir. Onlar bu müddətdə yoxlamalar həyata keçirib oktyabrın 14-də Ermənistan ərazilərini tərk edib ölkələrinə qayıdacaq, yuxarı komandanlığa rəsmi sənəd təqdim edəcəklər. Araşdırmaçı qrupun işğal altındakı əraziləri də inspeksiya etmək imkanları haqda gedən müzakirələrə toxunan Ü.Cəfərov bunu real saymadı:** "Əvvəlki illərdə olduğu kimi, Ermənistanın rəhbərliyi nə Türkiyədən olan nümayəndə heyətini, nə də bu vaxta kimi o bölgələrə gedən heç bir yoxlama qrupunu Ermənistandan o yana buraxmayıblar. Azərbaycan tərəfinin dəqiq məlumatları var ki, işğalçı dövlət qanuni və qeyri-qanuni yollarla əldə etdiyi silahların və avadanlıqların əhəmiyyətli hissəsini məhz işğal altında olan və beynəlxalq nəzarətdən kənarda qalan ərazilərdə yerləşdirib. Bu, belə olmasaydı, Ermənistanın cinayətkar rejimi çox asanlıqla yoxlama qruplarını o ərazilərə də buraxa bilərdi".

Bəzi müşahidələr göstərir ki, Moskva indiki mərhələdə Bakının Ankaranın yox, Rusiyanın yanında yer alması üçün hərəkətə keçib. Belə ki, Rusiya ilə Azərbaycan arasında Azərbaycana Rusiya hərbi texnikasının satışına dair danışıqlar gedir. Rusiya bununla həm əlavə qazanc əldə etmiş olur, həm də Azərbaycanın rəğbətini qazanmış olur. Virtualaz.org saytı xəbər verir ki, bu barədə iki ölkə hökumətlərarası komissiyasının Moskvada keçirilən iclasında iştirak edən hərbi-sənaye kompleksindəki mənbə "Rambler" agentliyinə bildirib.

"Azərbaycana hərbi texnika təchizatı müzakirə olunur, ancaq qapalı rejimdə", - deyə mənbə bildirib. Mənbə təkcə onu əlavə edib ki, danışıqlar Azərbaycana Rusiya istehsalı olan hərbi vertolyotların və zirehli tank texnikasının təchizatı barədə aparılır. Azərbaycan Rusiyadan son illərdə milyardlarla dollarlıq müasir hücum silahları, o cümlədən T-90S tankları, "Smerç" reaktiv yaylım atəşi sistemləri, S-300 zenit-raket kompleksləri, Mi-35M vertolyotları və s. alıb. Bu yaxınlarda məlum olub ki, Azərbaycan Rusiyadan T-90S tanklarının yeni partiyasını və daha bir neçə "Smerç" sistemlərini almağa maraq göstərir. Qeyd edək ki, bugünlərdə ordumuzun hərbi təlimlərini izləyən baş nazirin 1-ci müavini Yaqub Eyyubov Moskvaya getmişdi...

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı qəzetimizə dedi ki, Rusiya və Azərbaycan arasındakı silah, texnika alqı-satqısını şərh etməyəcək. Ötən həftə düşmənlə təmas xəttində baş verənlərlə bağlı sorğumuzun cavabında isə bildirdi ki, hazırda təmas xəttində sakitlikdir. Sonuncu itkiləri erməni tərəfin gizlətməsinə gəldikdə, nazirlik sözçüsü bunu təbii saydı:** "Onlar çox nadir hallarda itkiləri təsdiqləyirlər. Ancaq bizdəki dəqiq məlumatlara görə, itkiləri çoxdur. Biz konkret mövqeni göstərmədik, çünki düşmən müxtəlif mövqelərdən itkilər vermişdi".

**V.Dərgahlı ordunun hazırlıq səviyyəsindən də əminliklə danışdı:** "Cəbhə bölgəsində ola biləcək hər hansı bir hadisəyə silahlı qüvvələrimiz həmişə hazırdır. Son dövrlərdə düşmənin aktivləşməsinin qarşısı silahlı qüvvələrimiz tərəfindən dərhal alınıb və bundan sonra da alınacaq".

# Ankaradakı qətliam sosial şəbəkəni necə vurdu...

## Yayın qadağası partlama anına aid videogörüntülərə görə tətbiq edilibmiş

**Ankarada 100-ə yaxın insanın həyatını itirdiyi qətliamın ardınca internet istifadəçiləri üçün facebook və twitterə girmək problem olub. Türkiyə mətbuatının yazdığına görə, sosial medianın iki nəhənginə yavaşlama tətbiq olunub. Maraqlıdır ki, hadisə baş verən saatlarda insanlar daha çox sözügedən şəbəkələrə veb vasitəsilə daxil ola bilirdi. Quzey İraqdakı PKK hücumları, eləcə də Suruç qətliamı zamanı da sosial mediaya yavaşlama tətbiq olunmuşdu.**



Baş nazirlik də meydana gələn partlayış haqqında keçici yayın qadağası gətirildiyini elan edib. Rəsmi açıqlamaya görə, bu, RTÜK (Radio Televiziya Üst Kurumu) tərəfindən keçici olaraq yayın yasağı olub. İddialara görə, yayın qadağası partlama anına aid videogörüntülərə görə həyata keçirilib.

Ankaradakı məlum partlayışla bağlı daha bir ilginc iddia isə hadisədən bir gün öncə twitterdə "Pir Ozan Abdal" adlı hesabdan yazılanlar idi. Türkiyə mətbuatı yazır ki, sözügedən şəxs "Ankarada mümkün olacaq bir bombalı hücum ən böyük qətliamlardan birinə səbəb ola bilər" deyə açıqlama yazıb. Ozan Abdal eyni zamanda aşağıdakıları qeyd edib: **"Ən qorxunc ehtimal da Suruç və başqaları ola bilər. Baş verə biləcək bombalı aksiya ən böyük qətliamlardan birinə yol aça bilər, bu da ehtimal daxilindədir. Mitinqin qanuni olması qətliamın siyasi mənfəətə çevrilməsinə səbəb olur, bu vəziyyət də belə bir hücumun ehtimalını artırır".**

Kimliyi bilinməyən twitter istifadəçisi eyni zamanda yazıb ki, "sabah orda ölsəm, əsla və əsla ölkəsini sevmədi deməsinlər. Mən bu ölkəni Ədirnədən Ardahana qədər çox sevdim". Bu, onun vida mesajı olub.

Maraqlıdır ki, gecə 00.22-dən sonra silsilə paylaşılan 8 tvittin sahibi hücumdan sonra hesabını bağlayıb.

Amma sosial şəbəkə vasitəsilə tanınmışlar hadisə ilə bağlı mesajlarını yayıblar. Onlardan bir neçəsini diqqətə çatdıraq:

**Mahsun Qırmızıgül:** «Yazıq, günah bu ölkəyə. Yaşanılan bu acıları, insanlarımız haqq etmir. Terrorun hər cürünü lənətləyirəm».

**Selçuk Yöntem:** «Bu nə vəhşilikdir, bu nə insanlıqdır. Lənət olsun bunu edənlərə».

**Atilla Taş:** «Ankaradakı partlamada həyatını itirənlərə rəhmər, yaralılara şəfa diləyirəm. Hər kim bu qandan xoşlanırsa, ona da lənət diləyirəm».

**Arda Turan:** «Ankarada həyatını itirən vətəndaşlarımıza Allahdan rəhmət diləyirəm. İçimiz yanır. Bu gözəl ölkə qardaşlıq coğrafiyası olsun artıq».

**Gülben Ergen:** #Ankara #LanetOlsunTerror#ŞiddeteLanetOlsun

**Cem Yılmaz:** «Başımız sağ olsun. Terrora, insan həyatını heçə sayan hər fikrə lənət olsun».

**Amma sosial şəbəkədə də bu qətliamı törədənlərlə bağlı müxtəlif fikirlər, təpkilər vardı. Bu hadisənin PKK tərəfindən törədilməsi, eləcə də hədəf olaraq solçuların göstərilməsi də ana xətlərdən biri idi. Ankarada yaşayan həmkarımız Şəhla Əbusəttar bu cür düşüncədə olanlara sosial şəbəkədəki hesabından cavab verməşdi:** "Solçular ölmüş, solçular yapmış, iyi olmuş diyen zihniyyet sizin içinizde insanlık ölmüş, hepinizden tiksiniyorum... Solcular ölmüş diye sevinen bir kişi dahi varsa kendi dostlugumdan çıksın. Kana bakıp sevinen ve müslümanım diyenler ben kafir olmaya varım, yeter ki sizden olmayım... Gerizekalılar, insan ölmüş, insan, başınıza gelsin, inşallah".

**❑ Sevinc TELMANQIZI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## Banklara borcu olan vətəndaş ölkədən qaçmaq istəyərkən saxlanıldı

**Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları dövlət banklarına olan külli miqdarda borcunu ödəməkdən yayınmaq məqsədilə ölkəni qeyri-qanuni yolla tərk etmək niyyətində olan şəxsi saxlayıblar.**

DSX-nin mətbuat mərkəzindən BAKU.WS-ə verilən məlumata görə, dünən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Balakən rayonu Mazımçay kəndi ərazisindəki zastavanın xidməti sahəsindən dövlət sərhədini Azərbaycandan Gürcüstan istiqamətində pozmağa cəhd göstərən bir nəfər Azərbaycan Respublikasının vətəndaşı, 1974-cü il təvəllüdlü Sadıqov Səməd Qüdrət oğlu saxlanılıb.

Müəyyən edilib ki, S.Sadıqov dövlət banklarına olan külli miqdarda borcunu ödəməkdən yayınmaq məqsədilə ölkəni qeyri-qanuni yolla tərk etmək niyyətində olub.

Fakt üzrə araşdırma tədbirləri davam etdirilir.

## Xalq artisti zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib



**Azərbaycanın xalq artisti Nazpəri Dostəliyeva zəhərlənib. "Report"un xəbərinə görə, xalq artisti 1 saylı Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə aparılıb.**

Belə ki, xalq artisti yuxu pozğunluğuna qarşı dərman atıb. Lakin dərman əks effekt göstərib. Bu səbəbdən də o, təcili 1 saylı Kliniki Tibbi Mərkəzə aparılıb. Mərkəzdə ona zəhərlənmə diaqnozu qoyulub.

1 saylı Kliniki Tibbi Mərkəzdən fakt təsdiqlənib: "Hadisə oktyabrın 10-da baş verib. Nazpəri Dostəliyeva həmin gün xəstəxanaya gəlib. Həkim məsləhəti ilə bir gün xəstəxanada yatıb, səhəri gün, yəni oktyabrın 11-də evə buraxılıb".

## Abşeron və Xətai rayonlarının qaz təchizatı məhdudlaşdırılır

**Abşeron magistral qaz kəmərləri sahəsində cari təmir işləri aparılacaq. SOCAR-dan "APA-Economics"ə verilən məlumata görə, oktyabrın 13-də saat 10:00-dan 18:00-dək "Qaz İxrac" İdarəsinin Abşeron magistral qaz kəmərləri sahəsinin "Əhmədli", "Mehdiabad" və "Novxanı" qazpaylama stansiyalarında, eləcə də bəzi ölçü qovşaqlarında cari təmir işləri aparılacaq.**

Təmir müddətində Abşeron rayonunun Mehdiabad və Novxanı kəndlərinin qaz təchizatında məhdudiyyətlər olacaq. Aparılan işlərin Bakının Xətai rayonunun bir hissəsinin qaz təchizatına təsir göstərməsi də mümkündür.

## Gəncədə ana və qızı bıçaqlandı



**Gəncə şəhərində bıçaqlanma hadisəsi baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, Gəncə şəhər sakini, 1977-ci il təvəllüdlü Xarafruz Elnarə və onun 1998-ci il təvəllüdlü qızı Xarafruz Səkinə bıçaq xəsarətləri ilə Gəncə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib.**

Dərhal əməliyyat edilən ana və övladının vəziyyəti orta-ağır qiymətləndirilir. Qadın spirtli içki qəbul edən qaynı tərəfindən bıçaqlandıqlarını deyib.

Faktla bağlı Gəncə Şəhər Baş Polis İdarəsində araşdırma aparılır.

YENİ MÜSAVAT
N 226 (6254) 13 oktyabr 2015



# Havalar soyudu, "dəm qazı terroru" başladı...

## Ekspert: "İnsanlar qazdan təhlükəsiz istifadə qaydalarını bilmirlər"

**Havalar bir az soyuyan kimi dəm qazından zəhərlənmələrin sayı da artır. Hələ ki kəskin soyuqların olmamasına baxmayaraq, müxtəlif informasiya mənbələrində hər gün dəm qazından zəhərlənmə ilə bağlı xəbərlərə rast gəlirik. Sonuncu olaraq Şabranda dəm qazı bir gənc qadının həyatına son qoyub. Bəs hər il təkrarlanan və can almağa davam edən dəm qazı zəhərlənmələrinin səbəbi nədir? Bunun qarşısını necə almaq olar?**

Azad İstehlakçılar Birliyinin kommunal məsələlər üzrə eksperti **Nüsrət Qasımov** dəm qazından zəhərlənmələrin başlıca təqsirkarının elə insanların laqeydliyi olduğunu bildirdi: "Qaz Amerikada da, İngiltərədə də metan $CH_4$-dür. Onun tərkibi dəyişmir. Ən keyfiyyətli qaz isə Azərbaycan qazıdır. Yerdən çıxan qazın 94-96 faizi metandan ibarətdir. Bundan başqa, qaz emal zavoduna gəlir və orada təmizlənir, daha sonra isə əhaliyə verilir. Qazın tərkibində heç bir zəhərli maddə yoxdur. Sadəcə olaraq, qazı yandıranda, onun yanma prosesi düzgün getməyəndə karbon 4 oksid əvəzinə, karbon monoksid - yəni dəm qazı ayrılır. Bu da insanı zəhərləyir. Əgər bir otaqda 1,4 faiz dəm qazı yığılıbsa, 7 dəqiqədən yarım saata qədər insan zəhərlənir, beyin toxumaları ölür və beləliklə, insanın həyatının sonu olur. Dəm qazından ölmələrə, zəhərlənmələrə səbəb insanların laqeydliyi və səhlənkarlığıdır. Bəzi mütəxəssislər deyir ki, dəm qazı iysizdir. Amma elə deyil. Dəm qazının sarımsaq iyinə bənzər iyi var. İnsanlar bu iyi hiss etsələr də, gözləri yaşarsa da, öz talelərinə laqeyd yanaşırlar. Qazın təhlükəsiz istifadə qaydaları istehlakçılar tərəfindən tez-tez pozulur. İnsanlar özbaşlarına qaz təmir edir, qaz quraşdırırlar. Qaz ustalarının lisenziyası olmalıdır. Qaz ustaları işə başlamadan əvvəl onlara naryad yazılmalıdır, təlimat verilməli, dərs keçirilməlidir ki, hərə əlinə bir çamadan alıb şəhərin canına "qaz ustasıyam" deyib düşməsin. Bu cür insanlar qazdan təhlükəsiz istifadə qaydalarını bilmirlər. Cihaz işləməyəndə onun gözünü deşib böyüdürlər ki, təmir etdim. Bu da abonentlərə sərf edir. Amma onlar bilmirlər ki, bunun nəticəsi pis olacaq".

**N.Qasımov dəm qazından zəhərlənmələrə bir səbəbin də qaz peçlərinin harada gəldi quraşdırılmasının olduğunu dedi:** "Qaz peçini harada gəldi quraşdırmaq olmaz. Statistika göstərir ki, zəhərlənmələrin 90 faizi hamamxanada və yataq otağında olur. Qaz olan hamamın hündürlüyü 2 metr 20 santimetr olmaqla həcmi 7 kub metr olmalıdır. Hamamın qapısının aşağısında deliklər olmalı və bayıra açılmalıdır. Eyni zamanda tüstü bacası düzgün işləməlidir. Tüstü bacası düzgün işləməyəndə dəm qazından ölüm halları baş verir. Qazdan təhlükəsiz istifadə qaydalarına görə "pyatiminutka" deyilən su qızdırıcısının tüstü bacaları rübdə bir dəfə təmizlənməlidir. Digər yandırıcı cihazlar isə qış mövsümü qabağı təmizlənməlidir. Təəssüflər olsun ki, bu işi heç kim öhdəsinə götürmür. Qazdan təhlükəli istifadə qaydalarında yazılıb ki, bu işlə mülkiyyət sahibi özü məşğul olmalıdır. Əgər ev sənədi olan həyət evidirsə, bu işi ev sahibi görməli, yox, əgər hökumət evidirsə, bu işi yerli icra orqanları, mənzil istismar sahəsi həyata keçirməlidir. Təəssüflər olsun, 40 ildən çoxdur ki, bu işlə məşğul olan yoxdur. Tüstü bacaları öz ümidlərinə qalıb. İnsanlar da dərk etmir ki, tüstü bacası düzgün işləməyəndə o, dəm qazını içəri ötürür və beləcə otaqda olan insan zəhərlənir. Dörd gözlü qazlar quraşdırılan mətbəxin həcmi 15 kub metr olmalıdır. Yəni 2 metr 20 santimetr hündürlük saxlanılmaqla pəncərəsi olmalı, ventilyasiya kanalı olmalı və təbii işıq mənbəyi olmalıdır. Qaz yanan otaqda uzun müddət yatmaq, istirahət etmək olmaz. Ventilyator sistemi elə qurulmalıdır ki, həmin mənzillərin otağı bir saatda 3 dəfə dəyişilə bilsin. Bundan başqa, qaz yanan otaqlarda detektor deyilən qaz siqnal aparatı quraşdırılmalıdır. Bütün xarici ölkələrdə bu cihaz quraşdırılıb. Yalnız Azərbaycanda yoxdur. 10-12 manat qiyməti olan bu cihazı quraşdırmırlar, sonra da təqsirkar axtarırlar".

Bəs dəm qazı ilə zəhərlənməni necə müəyyən etmək olar? Dəm qazı ilə yüngül zəhərlənmə zamanı zərərçəkəndə başgicəllənmə, baş ağrısı, quru öskürək, ürəkbulanma, qusma kimi əlamətlər meydana çıxır. Daha ağır zəhərlənmə zamanı isə qıcolmalar, huşun uzun müddət itirilməsi, beyin ödemi, ürəyin zədələnməsi baş verir. Yadda saxlamaq lazımdır ki, kiçik yaşlı uşaqlar az miqdarda dəm qazından hətta həyatlarını itirə bilərlər!

Dəm qazı ilə zəhərlənmə zamanı ilk tibbi yardım olaraq zərərçəkəni dərhal açıq havaya çıxarmaq *(balkona, çölə)*, əynindəki paltarın yaxasını, kəmərini və sairə açmaq, ona yarıoturaq vəziyyətdə saxlamaq *(ağ ciyər ödeminin qarşısını almaq üçün)*, zərərçəkənin alnına, sinəsinə soyuq kompres qoymaq lazımdır. Əgər zərərçəkənin ürəyi dayanıbsa və nəfəs almırsa, dərhal reanimasiya tədbirlərinə başlamaq, yəni ürəyin xarici masajı və süni tənəffüs vermək lazımdır. Dəm qazı ilə zəhərlənmənin ilk əlamətləri meydana çıxan kimi dərhal təcili yardım çağırmaq lazımdır. Hətta zərərçəkənin vəziyyəti sizin göstərdiyiniz ilkin tibbi yardımdan sonra yaxşılaşsa belə, yenə də təcili yardım çağırmaq vacibdir.

❑ **Günel MANAFLI**

# Bankla vəkilin məhkəməsi başladı

## Əkrəm Həsənov: ""Nikoil Bank" mənimlə olan prosesinə bitərəf hakimin baxmasından qorxur"

**Oktyabrın 12-də "Nikoil Bank"ın vəkil Əkrəm Həsənova qarşı iddiası üzrə Yasamal Rayon Məhkəməsində hazırlıq iclası olub. Bu barədə vəkil özü məlumat verib. O bildirib ki, hakim Zəfər Quliyev məhkəmə tərkibinə etirazın olub-olmaması barədə sual verən kimi o, söz istəyib: "Bankın nümayəndəsinə bildirdim ki, hakim mənim uzaq qohumumdur: onun həyat yoldaşı mənim qaynımın həyat yoldaşının dayısı qızıdır. Ondan soruşdum: bununla bağlı hakimə etirazı varmı?**




Bankın nümayəndəsi cavab verdi ki, xeyr, yoxdur. Dedim ki, "Nikoil Bank"ın hakimə etiraz etməməsi mənim hakimə etiraz etməyim üçün əsasımı daha da ciddiləşdirir. Belə ki, məlum olduğu kimi, iddia predmeti olan facebookdakı yazımı 15-dən çox KİV dərc etmişdi. Amma iddiada mənimlə bərabər cavabdeh qismində yalnız "Aznews.az" portalı göstərilib. Məhz onun ünvanı üzrə də iddia Yasamal Məhkəməsinə verilib. Mənim ünvanım üzrə verilsəydi, işə Xətai Məhkəməsi baxmalı olacaqdı. "Nikoil Bank" niyə belə edib? Hələ avqust ayında bank mənə məktub yazaraq təkzib verməyimi xahiş etmişdi. Həmin məktubu bankın İdarə Heyəti sədrinin hüquqi məsələlər üzrə müşaviri Ayxan Rüstəmzadə imzalamışdı. Yəni məsələ ilə əlaqədar bankın məsul şəxsi məhz odur. Həmin Rüstəmzadə hakim Zəfər Quliyevin yaxın dostudur. 2012-ci ilədək Rüstəmzadə məhkəmə sistemində çalışıb. 2012-ci ildən isə "Nikoil Bank"a keçib. Məhz 2012-ci ildə də Rüstəmzadənin köməyi ilə hakim Zəfər Quliyev "Nikoil Bank"dan 25 il müddətinə 50000 manat məbləğində ipoteka krediti götürərək Bakı şəhəri, Gəncə prospekti, ev 73-də 47 nömrəli mənzili alıb. Başqa sözlə, hakim borclu olduğu "Nikoil Bank"dan asılı vəziyyətdədir. Ən azı ona görə ki, "Nikoil Bank" kredit üzrə ona edilmiş və ya ediləcək güzəştlərində maraqlıdır. Hakimin maaşı yüksək deyil, himayəsində isə həyat yoldaşı və iki uşağı var, üstəgəl, valideynlərinə də kömək edir. Beləliklə, hakimi "Nikoil Bank"la şəxsi dostluq və kredit öhdəliyi bağlayır. Məhz buna görə də iş ona gəlib düşüb və "Nikoil Bank"ı heç mənim hakimlə qohumluq əlaqəm də narahat etmir".

**Vəkil qeyd edib ki, Mülki Prosessual Məcəllənin 19-cu maddəsinə görə, hakimin obyektivliyinə və qərəzsizliyinə şübhə doğuran kifayət qədər əsas varsa, ona etiraz edilə bilər:** "Bu halda hakim ümumiyyətlə özü-özünə etiraz etməyə borcludur. Lakin hakim bunu etməyib. Buna görə də mən hakimə etiraz edirəm. Çıxışımdan sonra hakim özünü o qədər itirmişdi ki, heç məndən dediyimə dair sübut da istəmədi, halbuki qanuna görə istəməli idi. Başını qaldırmadan həm bank qarşısında kreditinin olduğunu, həm də Rüstəmzadə ilə dost olduğunu etiraf etdi".

**Onun sözlərinə görə, hazırlıq iclasının sonunda hakim bildirib ki, iclas etiraza baxılması üçün təxirə salınır:** "Etiraza Yasamal məhkəməsinin sədri baxacaq. Növbəti iclas 27 oktyabra təyin edildi. Adi etirazın baxılmasına 15 gün niyə lazımdır? Səbəb odur ki, 26 oktyabr tarixində hakimin 5 illik səlahiyyət müddəti bitir. Başqa sözlə, həmin tarixədək yenidən təyin olunmalıdır. Buna görə də onadək qalmaqalın olmağını, adının hallanmasını istəmir ki, birdən nəticədə təyin olunmasına mane olar. "Nikoil Bank" mənimlə olan prosesinə bitərəf hakimin baxmasından qorxur. Çünki haqsızdır".

❑ **RÖYA**



# BVF yeni böhranın anonsunu verdi

## Qurum rəsmisinin sözlərinə görə, faizlər azaldılmasa, böhran qaçılmazdır: "İnkişaf etmiş ölkələrin bir çoxunda risk hələ də aşağı artımla bağlıdır"

**Beynəlxalq Valyuta Fondu (BVF) rəhbəri Kristine Lagarde Perunun paytaxtı Limada keçirilən illik toplantıda Mərkəzi Bank rəhbərlərini xəbərdar edib. Lagarde banklara faizləri aşağı saxlamağı və iqtisadiyyatlarını canlandırmalarını məsləhət görüb: "Yoxsa yeni bir böhrana hazır olun. İnkişaf etmiş ölkələrin bir çoxunda risk hələ də aşağı artımla bağlıdır. Artımın dəstəklənməsi üçün pul siyasəti addımları genişləndirilməlidir", - BVF rəhbəri deyib. Onun sözlərinə görə, faizlər azaldılmasa, böhran qaçılmazdır. Yerli ekspertlər isə bu açıqlamaya fərqli münasibət bildiriblər.**

**Ekspert Natiq Cəfərlinin** sözlərinə görə, bütün dünya nəfəsini tutaraq ABŞ-da Federal Ehtiyat Sisteminin (FED) atacağı addımı gözləyir: "Əgər FED faiz artımına gedəcəksə, bütün dünyada likvidlik azalacaq, ucuz pul dövrü bitəcək, kreditlər bahalaşacaq, dolların məzənnəsi artacaq. Bu da inkişaf etməkdə olan ölkələrə daha ciddi təsir göstərəcək, çünki onlara gələn yatırımlar və "sıcaq para" azalacaq, bu isə həmin ölkələrdə investisiyaların azalmasına səbəb olacaq. Xanım Lagardenin açıqlaması məhz buna işarətdir".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, açıqlamada yəqin ki, BVF inkişaf etmiş ölkələri nəzərdə tutur:** "Orada normal bank sistemi var, faiz dərəcələrini bazar tənzimləyir, mərkəzi banklar isə korrektə edir. Onların dərəcələri onsuz da aşağıdır bizə baxanda. Yəni bu təklif bizə aid deyil. İnkişaf etmiş ölkələrdə mərkəzi bankdan bütün banklar kredit götürə bilir. Buna görə də mərkəzi bankın faiz dərəcəsi bütün bank sisteminin dərəcələrinə təsir edir. Bizim Mərkəzi Bankın dərəcəsi 3 faizdir. Yəni aşağıdır kifayət qədər. Amma nə olsun ki? Bankların hamısı götürə bilmir onsuz da. Buna görə də bizim Mərkəzi Bankdan kredit alan bank dərəcəsini endirmir. Amma hamısı bu krediti ala bilsəydilər, faizlər enərdi. Buna görə də bir təklifim var. Mərkəzi Bank kredit vermək istədiyi məbləği elan etməli və bütün banklar arasında bölüşdürməlidir. Yalnız bu halda faiz dərəcələri düşəcək və iqtisadiyyatımız inkişaf edəcək. Mərkəzi Bankın bu işdəki qeyri-şəffaflığı korrupsiya üçün zəmin yaradır və iqtisadiyyatı geriləyir".

❑ **RÖYA**

YENİ MÜSAVAT

Son səhifə

N 226 (6254) 13 oktyabr 2015

# 540 min sterlinqlik Quran

Mahmud Cəlaləddin tərəfindən yazılan Sultan Abduləzizə aid Quran əlyazması İngiltərədə 540 min sterlinqə satılıb. XVIII əsrin ikinci yarısında Mahmud Cəlaləddin tərəfindən yazılan Quran İngiltərənin məşhur Chrissties Hərrac evində satışa çıxarılmışdı. İslam əsərləri evinin ən dəyərli nümunəsi olan Quran nümunəsi Sultan Abduləzizin qızı Nəzimə Sultanın kitabxanasından tapılıb. Nüsxə ilk dəfə Səudiyyə Ərəbistan kralı tərəfindən İraq baş naziri əl-Geylaniyə hədiyyə olaraq verilib. İkinci bir bənzəri olmayan Quranın bu qədər yüksək qiymətə satılması sevinclə qarşılanıb.





## Arıqlamağın sadə yolu - qoz suyu...

**Təbii üsullarla arıqlamaq istəyənlər üçün hər gün yeni yol tapılır. Onlardan biri də son günlər haqqında çox danışılan qoz suyu möcüzəsidir. Sadəcə, su və qozla hazırlanan, içdikcə insanı arıqladan bu qarışıq ideal çəkidə qalmaq istəyənlərin ən yaxşı köməkçisi olacaq.**

Öncə onu qeyd edək ki, qoz suyu içmək insanı, sadəcə, arıqlatmır, həm də sağlamlığa müsbət təsir edir. Qoz suyu hamı üçün yararlıdır. Uşaq əmizdirən analar, zob xəstələri, xolesterindən əziyyət çəkənlər, bir sözlə, hər kəs belə suyu içə bilər. Qoz omeqa-3 yağ turşuları və zülalla zəngindir. Ona görə də insanı uzun müddət tox saxlayır, bədəndə toplanan yağları əridir.

Qoz suyunu əldə etmək çox asandır. Sadəcə, 1 ədəd qoza və 1 stəkan otaq temperaturunda suya ehtiyacınız var. Qozu suyun içinə salın və səhərə kimi qaranlıq yerdə saxlayın. Beləliklə, qozun tərkibindəki bütün yararlı maddələr və minerallar suya çıxacaq. Həmin suyu səhər acqarına için və suyun içində qalan qozu yeyin. İstədiyiniz çəkiyə qovuşana qədər bu prosesi davam etdirin (milli.az).

# Heyvanın faydaları

**Heyva - sərt, sarı rəngli, iri, içərisində xırda tumları olan üzəri tükcüklü meyvədir. Bu meyvə xüsusilə A və B vitamini ilə zəngindir. Payızda dəyən meyvələrdən olan heyva mədə-bağırsağın işini gücləndirir. Amma çox istifadə qəbzliyə səbəb ola bilər.**

Heyva qanı təmizləyir, ürək çırpıntılarına qarşı faydalıdır. Bronxit və vərəm kimi ağciyər xəstəliklərində öskürəyə qarşı yararlıdır. İnkişaf edən uşaqların sümüklərinin möhkəmlənməsinə kömək edir. Heyva hər yaşda olan insanların sinir sistemini gücləndirir, mədə-bağırsağı zərərli mikroblardan təmizləyir, dəriyə və dırnaqlara parlaqlıq qazandırır. Qızdırmanı aşağı salır, stressə qarşı təsirlidir. Qaraciyər, öd, ürək, qanaxmalara, mədə və bağırsaq xəstəliklərində misilsizdir. Kalorisi aşağıdır, yarpaqlarından qarqara edilməsi çox xeyirlidir.

Heyvanın tibbi faydaları ilə yanaşı, kosmetik önəmi də var. Belə ki, tumunun dəmləməsi saçlara sürtüləndə onlara parlaqlıq qazandırır. Üz və boyunda tətbiqi isə qırışların azalmasına kömək edir.





# Lazerlə idarə edilən ürək

Ürək xəstəliyindən əziyyət çəkən insanların istifadə edə biləcəyi yeni elektrikli ürək lazerlə idarə ediləcək. Araşdırmaçılar ilk olaraq bir ağcaqanadın genetikasını dəyişdirərək ürəyinə su yosunundan hazırlanan və lazer işığına həssas hüceyrələr yükləyib. Daha sonra ağcaqanadın üzərinə lazer işığı tutularaq ürəyinin hərəkətinə nəzarət edilib. Həşəratın ürək hərəkətlərinin lazerlə dəyişdiyini görən araşdırmaçılar eyni üsulu insan ürəyi üzərində də yoxlamağı planlaşdırırlar.




**QOÇ** - Ümumi ab-hava əsəblərinizə mənfi təsir göstərsə də, bu, qarşınıza qoyduğunuz məqsədlərə yetişməkdə sizə mane olmayacaq. Hərdəmxəyallıq, acıdillilik etməyin. Xeyir işlərə dəvətdən yayınmayın.

**BUĞA** - Saat 11-ə qədərki vaxtı nəzərə almasaq, bu təqvimin bəhrəsini hər addımda görəcəksiniz. Vəzifəli şəxslərlə ünsiyyəti dərinləşdirin. Əmin olun ki, müzakirələrdən asılı olaraq həyatınız dəyişəcək.

**ƏKİZLƏR** - Günboyu qazanc əldə etmək üçün yaxşı imkanlarınız olacaq. Vaxtın darlığını nəzərə alıb yarımçıq işlərinizi tezliklə yekunlaşdırmağa çalışın. Əks təqdirdə, qarşıdakı həftəni problemli keçirəcəksiniz.

**XƏRÇƏNG** - Daxilinizdə mövcud olan ümumi gərginliyi dəf etmək üçün mübarək insanlarla ünsiyyət qurun, ziyarətlərə baş çəkin. Ulduzlar saat 15-dən sonra ovqatınızda müsbət dönüş seziləcəyini bildirir.

**ŞİR** - Astroloji göstəricilər daha çox şəxsi büdcənizin artacağından xəbər verir. Hətta bunun naminə digər məsələləri ikinci plana da sala bilərsiniz. Qısası, bu gün cibiniz boş qalmamalıdır. Uzaq yola çıxmayın.

**QIZ** - İxtiyarınızda olan bu gün sizin üçün çox sakit keçəcək. Amma kiməsə borc vermək uğurlu deyil. Hüquqi sənədlərinizi qaydasına salın. Valideynlərinizə, yaşlı qohumlarınıza diqqəti artırın.

**TƏRƏZİ** - Kosmik ahəngə uyğunlaşmağı bacarsanız, qayğılarınız da azalacaq. Qlobal problemlərinizin həll olunması üçün canfəşanlığınızı artırmalısınız. İş yerini dəyişmək barədə tələskənlik etməyin.

**ƏQRƏB** - Ümumi məziyyətlərinə görə düşərli gün hesab etmək olar. Amma nəzərdə tutduğunuz ideyaları həyata keçirmək üçün mütləq risk etməlisiniz. Onsuz da əksər işləriniz risklər hesabına reallaşır.

**OXATAN** - Qarşınızda uğurlu bir gün durur, paralel olaraq bir neçə işdə fəaliyyət göstərə bilərsiniz. Hadisələrin müsbət inkişafı daha şanslı olmağınıza şərait yaradacaq. Rəhbərliklə mehriban davranın.

**OĞLAQ** - Perspektivlərinizin reallaşması üçün bir qədər mürəkkəb gündür. Hətta vəzifə pilləsində müəyyən uğursuzluq ehtimalınız da var. Tərəddüd etdiyiniz məsələlərdə təcrübəli insanlarla məsləhətləşmələr aparın.

**SUTÖKƏN** - Ulduzlar saat 16-ya qədər ayıq-sayıqlığınızı artırmağınızı məsləhət görür. Əlxüsus da fəaliyyət zəminində baş verən bütün proseslərdə neytrallıq nümayiş etdirməlisiniz. Səfərə çıxmaq olmaz.

**BALIQLAR** - Gün ərzində aldığınız heç bir dəvətə "yox" deməyin. Çünki astroloji göstəricilər tarixi bir gün yaşayacağınızı bildirir. Fürsəti fövtə verməmək lazımdır. Amma özünüzü bədxah adamlardan qoruyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qəpiklərlə sərvət qazandı



İngiltərənin Ceshire şəhərində yaşayan Von Heyvod Betva adlı əsgər internetdə şans oyunu oynayıb. 36 yaşlı gənc 25 pen qoyduğu şans oyunundan 13 milyon 213 min 838 sterlinq qazanıb. "Daily Telegraph"ın xəbərinə görə, Betva atasının ürəyindən və ciyərindən əməliyyat olunmasının vacib olduğunu, pulu ona xərcləyəcəyini deyib. Şanslı əsgərin ikinci planı isə qohumları ilə gəmi səyahətinə çıxmaqdır.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300